

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ədəbiyyatımızda nəfəsi olan ziyalı - Mir Cəlal Paşayev



4

SƏS

№ 072 (6997)

26 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan və Qırğızıstan prezidentlərindən həmrəylik mesajı!



2

# Qərbin "VARDANYAN ŞOUSU"




5

## Kabuslar şəhərinin dünyanı sarsıdan faciəsi



8

## Sifarişli və qərəzli hesabat



12

## Buzlaqlar əriyir, təhlükə böyüyür



15

## "Milli Şura" mitinqini "SOROS" Fondu ilə razılaşdırıb



14

## "Tik Tok": utanmağın daşını atdığımız yer



13

# Azərbaycan və Qırğızıstan prezidentlərindən həmrəylik mesajı!






## Prezident İlham Əliyev Almaniyada işgüzar səfərdədir

Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə ”15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gəlib.

Berlin şəhərinin Brandenburq ”Willy Brandt” Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.





Azərbaycanın siyasi iradəsi, iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Vətən müharibəsindən ötən üç ildən artıq bir müddətdə işğaldan azad olunmuş ərazilərdə görülən işlər bunun təzahürüdür. Həmin ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələr həyata keçirilib. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın karvanları Zəngilana, Füzuliyə, Laçına yol açıb. Bu Azərbaycanın gücünün göstəricisidir. Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən görülən işlər planlı şəkildə həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri və görülən işlərlə tanışlıq bu ərazilərin tezliklə abadlaşmasından xəbər verir.

### ”FÜZULİ ŞƏHƏRİ DEYƏNDƏ, ƏLBƏTTƏ, BİZ HAMIMIZ BİLMƏLİYİK Kİ, ŞƏHƏRDƏN BİR ŞEY QALMAYIB”

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov Füzuli şəhərində olub, dağıdılmış yerlərinə baxıb və Füzuli şəhərinin Baş planı ilə tanış olublar. O Füzuli şəhəri ki, burada işğal dövründə bir dənə də olsun salamat yer qalmamışdır. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Füzuli şəhəri Yağlıvənd, Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Govşad, Xələfşə, Mollavəli, Xatunbulaq kəndlərinin əhalisi çəkmişlər. 23 Avqust 1993-cü ildə Füzuli Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulub. Lakin Azərbaycan ordusunun 1994-cü ilin dekabr ayında başlatdığı Horadiz əməliyyatı nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Azərbaycan ordusu daha sonra Füzuli şəhərinin işğaldan azad olunması üçün hücuma keçsə də, bu əməliyyat uğursuzluqla nəticələndi.

44 günlük Vətən müharibəsində Füzulimiz də işğaldan azad olundu. Cənab Prezident çıxışlarının birində bildirmişdir ki, Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsərələmət qalmayıb, bir dənə də salamat bina qalmayıb: ”Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir”.

### FÜZULİ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ƏN BÖYÜK ŞƏHƏRLƏRDƏN BİRİ OLACAQ

İndi Füzuli yenidən qurulur. Artıq Füzuli şəhərində 744 ailənin, yəni 2839 nəfərin məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.Baş Plana əsasən burada inşa olunacaq Füzuli Memorial Kompleksində dağıdılmış binaların xarabalıqları olduğu kimi qorunub saxlanılacaq. Kompleksdə İşğal və Zəfər muzeyləri yaradılacaq.Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək rəqəmsal həllərdən istifadə etməklə, ənənəvi şəbəkə və xidmətlərin daha səmərəli olmasının təmin edilməsi məqsədilə hazırlanmış ”ağıllı şəhər” konsepsiyası irəli sürülüb. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Burada şəhərsalmanın bütün müasir tələblərinə cavab verəcək üç yaşayış kompleksi inşa olunur. Komplekslərdə ümumilikdə 2462 mənzil olacaq.

Baş plana əsasən, təxminən 22,5 hektar ərazidə Mərkəzi park yaradılacaq. Parkda istirahət zonaları, botanika bağı, sıx meşə zonası, piknik və idman meydançaları, ”Poeziya” meydanı, amfiteatr, kafe-restoranlar və s. fəaliyyət göstərəcək. Burada müayinə və müalicənin yüksək səviyyədə aparılması üçün ən müasir tibbi avadanlıqla təchiz ediləcək 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanası inşa olunacaq.

2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil magistralının davamı olan bu yolun uzunluğu 64,8 kilometrdir.

### QARDAŞ ÖLKƏDƏN DOST TÖHFƏSİ

Füzuli Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində ”Ağıllı kənd”in, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzin, çoxmənzilli yaşayış məhəlləsinin və s. tikintisinə başlanılması Füzulinin tezliklə abadlaşmasından xəbər verir.

*Ardı Səh. 3*





Əvvəli Səh. 2

# Azərbaycan və Qırğızıstan prezidentlərindən həmrəylik mesajı!

Füzuli şəhərində üçüncü yaşayış kompleksi inşa olunur. Abadlıq-quruculuq işlərinə dost ölkələri, türk dövlətləri də öz töhfəsini verir. Bildiyimiz kimi, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə 960 şagird yerlik məktəb tikilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Bu ilin martında isə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi, eləcə də Prezident Sadır Japarovun təşəbbüsü ilə Ağdam rayonunda Qırğızıstan tərəfindən tikiləcək orta məktəbin təməlinin qoyulması ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının parlaq nümunələridir.















## "QAFQAZIN XİROSİMASI" BÖYÜK QURUCULUQ VƏ ABADLIQ MEYDANIDIR

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində də oldular. Dövlət başçılarına şəhərin Baş planı barədə məlumat verilib.Bildiyimiz kimi, 10 noyabr 2020-ci ildə Ermənistanın qol çəkdiyi üçtərəfli bəyanatda qeyd edilən Azərbaycan rayonlarının işğaldan azad edilməsi cədvəlinə uyğun olaraq, 20 noyabr 2020-ci ildə erməni silahlı birləşmələri Ağdam rayonunu tərk etdi. 20 noyabr 2020-ci ildə Azərbaycan ordusu Ağdama daxil oldu və təhlükəsizliyin təmin edilməsi üçün zəruri tədbirlərin icrasına başlanıldı. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldıldı.Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çevirib, şəhəri yerlə-yeksan ediblər. Buna görə Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar.

Ermənistan silahlı qüvvələrinin daşı-daş üstə qoymadığı Ağdam şəhəri Azərbaycan dövləti tərəfindən yenidən salınır. Müasir şəhərsalma həlləri əsas götürülməklə yeni şəhər inşa olunur.Baş Plana əsasən, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır. Kompleks İşğal muzeyindən başlayacaq və Zəfər muzeyi ilə başa çatacaq. Onların arasında isə Xatirə bağı yerləşəcək. Ərazidə dağıntılar olduğu kimi saxlanılacaq. Muzey erməni vandallığının və işğal tarixinin şahidi olaraq gələcək nəsillərə Ağdamın 30 illik acı taleyini çatdıracaq, tarixi həqiqətləri unutmağa imkan verməyəcək.

Şəhərin mərkəzi hissəsində 960 yerlik ümumtəhsil məktəbi də tikiləcək. Muğam Mərkəzi isə birmərtəbəli və ikimərtəbəli bloklardan ibarət olacaq. Şəhərdə salınacaq Mərkəzi park üçün 5 hektar ərazi ayrılıb. Parkın ərazisi 4 zonaya bölünüb və insanların asudə vaxtlarının səmərəli keçirmələri üçün lazımi şərait yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə, Ağdam Konfrans Mərkəzi ilə tanış oldular. Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak ediblər. Ağdamda Şahbulaq qalasında oldular.Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Qırğızıstan Prezidentinin Ağdam və Füzuliyə səfəri türk birliyinin, həmrəyliyinin daha bir ifadəsidir.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ədəbiyyatımızda nəfəsi olan ziyalı - Mir Cəlal Paşayev

XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli yazıçı, böyük alim, xeyirxah insan Mir Cəlal Paşayev də məhz belə şəxsiyyətlərdən biri kimi xalqımızın yaddaşında əbədiyaşarlıq haqqı qazanıb. Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan Mir Cəlal Paşayev əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, yorğunluq bilmədən çalışmış, zəngin irsin müəllifinə çevrilmişdir. Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Onun yaradıcılığında Azərbaycan xalqının tarixinin böyük bir zaman kəsiyi öz əksini tapıb. Böyük yazıçı öz əsərlərində təkcə tariximizi deyil, eyni zamanda, mədəniyyətimizi də nümayiş etdirmişdir.



## SADƏ, TƏVAZÖKAR HƏYATIN KİÇİK LÖVHƏLƏRİ

Mir Cəlal Paşayev öz sadə, təvazökar həyatı ilə bir ziyalı olduğunu sübut etmişdir. Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır.

1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır.

Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

## "SAĞLAM YOLLARDA"

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri "Qızıl Gəncə", "Ədəbiyyat cəbhəsində", "Hücum" jurnallarında və "Gənc işçi" qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq "Sağlam yollarda" adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. "Dirilən adam" və "Bir gəncin manifesti" romanları yazıçının dəyərli əsərlərindəndir. "Bir gəncin manifesti" Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir", deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş "Açıq kitab", "Təzə şəhər", "Yolumuz hayanadır?" kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: "Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir..."

## ƏDƏBİ-ELMİ FƏALİYYƏTİNDƏ YENİ SƏHİFƏLƏR

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi "Bostan oğrusu", "Yanlış barmaqlar", "Mərkəz adamı" kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, "Pərzad", "Qaymaq", "Dost görüşü", "Qonaqpərəst" kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orjinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir.

İkinci Dünya müharibəsi dövründə "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

## YARADICILIĞINDA YENİ MƏRHƏLƏ

Müharibə illəri Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal "Yollar", "Axşam səfəri", "Atlı", "Snayper" hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. Ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: "Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş yazıçının "Bir gəncin manifesti" Azərbaycan gəncinin manifestidir. Görkəmli yazıçı öz əsərləri ilə gənclərə Vətənə, xalqa məhəbbət hissi aşılamış, onlara xalqın sevincinə sevinməyi, kədərinə kədərlənməyi öyrətmişdir.

## BƏŞƏRİLİYƏ HEYRANLIQ

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı. Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur.

Azərbaycan Respublikası Prezidentinin "UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və alçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

Azərbaycan xalqının bəşər tarixinə bəxş etdiyi böyük ziyalı, yazıçı, pedaqoq Mir Cəlal Paşayev həm yazıçı, həm müəllim, həm də alim kimi adını tarixə əbədi həkk edən insanlardandır. Şəxsiyyətinin və yaratdıqlarının böyüklüyünə baxmayaraq sadə və səmimi, böyük ürəyə sahib bir insan olan Mir Cəlal Paşayev ürəklərdə yaşayır.

***Zümrüd BAYRAMOVA***

# Fuat Oktay: "2040-cı il hədəflərimizə doğru inamla irəliləyirik"



Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin uğurları, qazandıqları nailiyyətlər hər birimizi sevindirir. Azərbaycanın 30 illik işğaldan sonra öz ərazi bütövlüyünü bərpa etməsinin ardınca Şimali Kipr Türk Respublikasının bugünkü toplantıda bizimlə birgə olması qürurvericidir. Bu fikirləri AZƏRTAC-a məxsusi müsahibəsində Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay səsləndirib.

Bakıda keçirilən Türk dövlətləri parlamentlərinin Xarici əlaqələr komitələri sədrlərinin birinci iclasının bütün Türk dünyası üçün faydalı olacağına inandığını dilə gətirən TBMM-in komitə sədri deyib: "Hazırda regionda sülhün, sabitliyin bərqərar olunması, bir sözlə, Azərbaycanla Ermənistan arasında normallaşma istiqamətində çox ciddi işlər görülür. Düşünürəm ki, bir və həmrəy olduğumuz təqdirdə bizi narahat edən problemləri də rahatlıqla və tez həll edə bilərik. Şimali Kipr Türk Respublikasının müstəqilliyinin tanınması uğrunda güclərimizi birləşdirməli və səylərimizi artırmalıyıq".

Fuat Oktayın sözlərinə görə, Türk dövlətlərinin birliyi hər hansı ölkəyə təhdid kimi qəbul edilməməlidir: "Bizim məqsədimiz ortaq dəyərlərə malik xalqlarımızın həmrəyliyini daha da gücləndirmək, həmçinin regionda sülhə nail olunmasıdır. Təbii ki, türk dövlətlərinin birliyi bölgədəki digər ölkələrin, xalqların rifahının yaxşılaşdırılmasına töhfə verəcək".

"Türk Dünyası 2040 Vizyonu" proqramının əhəmiyyətindən danışan TBMM-in komitə sədri deyib: "Azərbaycana bundan əvvəlki səfərlərimizin birində Prezident İlham Əliyevlə görüşəndə o bildirdi ki, bu birliyə parlamentləri də cəlb edək. Yəni, bu, əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığın dərinləşdirilməsində parlamentlərarası əlaqələr baxımından faydalıdır. Budur artıq, Türk Dövlətləri Təşkilatının İstanbul Zirvəsində qəbul edilən "Türk Dünyası 2040 Vizyonu" sənədi hazırdır. Biz bu proqram üzərindən işlərimizi davam etdirir və 2040-cı il hədəflərimizə doğru inamla irəliləyirik".

# Karlo Marino: "COP29 Azərbaycan üçün öz potensialını dünyaya nümayiş etdirmək baxımından gözəl imkandır"



Laçında keçirilən konfransda iştirak etməyimə çox şadam. 2016-cı ildən etibarən Azərbaycanda hadisələrin inkişafını diqqətlə izləyirəm. Azərbaycana böyük marağım var. Bu, işğaldan azad edilmiş ərazilərə birinci səfərimdir. Mən Azərbaycan ilə Ermənistan arasında 2020-ci ildə baş vermiş müharibə haqqında kitabın müəllifiyəm və bu səbəbdən də burada olarkən xüsusi həyəcan hissi keçirirəm. Bu sözləri AZƏRTAC-a "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" beynəlxalq forumunun iştirakçısı, Milandakı İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, "Eurasiaticanews"un təsisçisi və direktoru Karlo Marino söyləyib.

Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən böyük təəssüratla ayrıldığını qeyd edən Karlo Marino əlavə edib: "Dünən mənə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə iştirak etmək nəsib olub. Prezident məndə çox böyük təəssürat doğurdu. O, bizimlə üç saatdan çox görüşdü və bütün suallarımızı cavablandırdı. Mənim Prezidentə Azərbaycan ilə İtaliya arasında münasibətlər haqqında sual verməkimkanım oldu. Onun cavabı məni sevindirdi. Dövlət başçısı dedi ki, iki ölkə arasında münasibətlər çox yüksək səviyyədədir və qarşılıqlı fəaliyyət, o cümlədən yaşıl iqtisadiyyat sahəsində əməkdaşlıq üçün çoxlu yeni imkanlar mövcuddur".

Ölkəmizin beynəlxalq arenada müsbət imicə malik olduğunu vurğulayan Karlo Marino əlavə edib ki, qarşıdakı COP29 konfransı Azərbaycan üçün öz potensialını bütün dünyaya nümayiş etdirmək baxımından gözəl imkandır.

# Qərbin "VARDANYAN ŞOUSU"

Təhlil

***Hər dəfə dünyanın haqsız, ədalətsiz yanaşmasını müşahidə etdikcə, ələlxüsus da əsassızcasına erməni təəssübkeşliyinin şahidi olduqca, ikili yanaşmanın, hətta ikiüzlülüyün hələ də davam etdiyinə bir daha əmin oluruq. Reallıqları görməməzliyə vurmaq, haqqın, ədalətin tərəfində olmamaq, terrorçunu dəstəkləmək dünyada ənənə halını almış kimi görünür. Bu dırnaqarası ənənə bəzən elə bir həddə davam etdirilir ki, hətta görüntü, şou xarakteri daşıdığı da dərhal bəlli olur.***




## Terrorizmi dəstəkləyənin Nobel Sülh Mükafatına namizəd göstərilməsi absurddur

Ruben Vardanyan kimi terrorizmə dəstək verən birinin guya "xeyriyyəçilik və humanitar fəaliyyətinə" görə 2024-cü il Nobel Sülh Mükafatına namizəd göstərilməsi qətiyyən qəbuledilən və haqq qazandırılan ola bilməz. Sülhə mane olan, təhlükəsizliyə təhdid yaradan, terroru dəstəkləyən, maliyyələşdirən birinə belə bir mükafat barədə düşünmək belə simasızlıqdır. Belə simasızlığa, yəni, terrorçunun təbliğat kampaniyasına yenidən başlanılmasına çox təəssüf ki, dünyanın məşhur PR şirkətləri də qoşulublar. Həmin şirkətlərin yaratdıqları şou məhz Vardanyanın azadlığa buraxılması və "qəhrəmanlaşdırılması" məqsədi iledir. Onun məhz qəhrəman kimi göstərilməsi kampaniyası heç də ilk dəfə deyil və Rubenin hələ Qarabağda olduğu dövrdə də barəsində belə şou xarakterli kampaniya təşkil edilmişdi. İndi həmin o şouya yenə də start verilib və nəzərə alsaq ki, fərli nə isə yoxdur, deməli, bunlara elə "Vardanyan şou" desək daha doğru olar.

Bir sıra nüfuzlu şəxslər, o cümlədən Nobel Sülh Mükafatı laureatı tərəfindən Ruben Vardanyanın namizədliyinin təklif olunması həqiqətən də çox böyük təəccüb, təəssüf, hətta ikrah hissi belə doğurur. Diqqətə çatdıraq ki, terrorizmi maliyyələşdirən, dəstəkləyən biri haqda belə bir şou təşkil edilməsi Ermənistan mediasında bir müddətdir müzakirə mövzusuna çevrilib. Onun "humanist və xeyriyyəçi" kimi təqdim olunması da şounun, yəni, "Vardanyan şou"-nun sadəcə elementləri hesab oluna bilər. Amma terrorizmi dəstəkləyənin belə təqdimatı onu deməyə əsas verir ki, deməli, həmin şounu təşkil edənlər Azərbaycan ərazisində separatizmi dəstəklənməkdədirlər. Belə çıxır ki, onlar Vardanyanın ölkəmizin Qarabağ bölgəsində etdikləri bəd əməllər, terrorçuluq hərəkətlərini "yaxşı işlər" kimi təqdim edirlər, hansıki bu, qətiyyən qəbuledilməzdir. Bir sözlə, terrorizmi dəstəkləyənin, terrorçunun özünün Nobel Sülh Mükafatına namizəd göstərilməsi absurddur.

## Cinayətkarın Nobel Sülh Mükafatına namizəd göstərilməsi belə Nobel ailəsinin ünvanına təhqirdir

Doğrudur, kiminsə hər hansı bir mükafata namizədliyini irəli sürmək, hələ onu, yəni həmin mükadatı alması, yaxud ona layiq olması demək deyil. Amma Nobel Sülh Mükafatı uğrunda məhz Azərbaycana qarşı törədilmiş külli miqdarda cinayət hadisələrinin iştirakçısının üzünü ağartmaq cəhdinin özü Nobel ailəsinin ünvanına bir təhqirdir. Ruben Vardanyan Bakı İstintaq Təcridxanasında olan və bir sıra ağır ittihamlarla təqsirləndirilən biridir. Daha dəqiq desək, o, Cinayət Məcəlləsinin 214.1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunla nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1 (dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə cinayət əməlləri törədib. Buna görə də Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə təqsirli bilinib. Çünki Ruben Vardanyan terror və təxribat xarakterli əməllər törətmək məqsədi ilə Azərbaycanın dövlət sərhədini qanunsuz keçərək, Rusiya Sülhməramlı Qüvvələrinin məhz Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdiyi əraziyə daxil olub, silahlı birləşmələrin formalaşmasında və təşkilində iştirak edib, bu dəstələri silah-sursatla təmin edib. Həmin silah-sursatın çoxu hələ də Qarabağda aşkar edilməkdədir. Yəni, Vardanyanın cinayətlərinə dair sübut bazası geniş şəkildə toplanıb və əldə kifayət qədər faktlar var. Əslində, onun özü belə heç vaxt təxribat missiyasının olduğunu da inkar etməyib. "Biz özümüzü Azərbaycanın bir parçası olduğumuzu təsəvvür edə bilmərik. Biz ayrı bir ölkəyik. Mən "Artsax"dan danışıram. "Artsax Azərbaycanın bir hissəsi olmaq istəmir", deyə BBC-nin "Hard Talk with Stephen Sackur" proqramında o bunu öz dili ilə açıq şəkildə təsdiq də edib. Bundan əlavə, o, "Forbes" jurnalına müsahibəsində mifik və qondarma "Artsax xalqı" barədə uydurmalar danışıb. "Bunu hərbi yolla həll etmək cəhdi birbaşa itkilər baxımından Azərbaycana çox baha başa gələcək", deyən Ruben Vardanyan açıq şəkildə hətta Azərbaycanı hədələyib də. İndi belə biri haqqında danışarkən sülh sözünü işlətməyin özü belə ikiüzlülük və riyakarlıqdır. Belə bir şou onu təşkil edənlər üçün çox böyük bir rüsvayçılıq deməkdir.

## Dünyanın istənilən ölkəsində bu cür təhdid və hədələrin müəllifi uzun illər həbsxanaya göndərilir

Onu da xatırladaq ki, Vardanyan Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən belə tanınan Azərbaycanın ərazi bütövlüyü barədə danışarkən bunu açıq-aşkar inkar edib, həm də ölkəmizin qanuni hüquqlarının müdafiəsi prosesində hansı "fədakarlıqları" gözü qarşısına alaraq da yenə hədə kəsib. Dünyanın istənilən ölkəsində təkcə bu fakt kifayət edərdi ki, bu cür hədələrin müəllifi uzun illər həbsxanaya göndərilsin. "Humanist və xeyriyyəçi" Osmanlı İmperiyasının keçmiş Daxili İşlər Naziri Təlat Paşanın, Osmanlı İmperiyasının keçmiş Dəniz Donanması Naziri Cemal Paşanın və başqalarının öldürülməsi ilə nəticələnən "Nemesis" əməliyyatını təşkil edən erməni terrorçularını açıq-aşkar tərənnüm və təbliğ edən birindən söhbət gedir. Eyni zamanda, "hər şey ola bilər", deyərək, ölkəmizə qarşı terror təhdidi edən biri müzakirə mövzusudur. Hazırda Vardanyanın Nobel Sülh Mükafatına namizədliyini irəli sürən hər kəs terror aktlarının tərəfdarını, Nemesis əməliyyatını həyata keçirənlərin davamçısını dəstəkləməklə nə qədər rüsvayçı, nə dərəcədə biabırçı göründüyünü heç düşünürmü?! Bu görüntüyə, bu şouya, məhz süni şəkildə yaradılan "Vardanyan şou"-ya nə şəkildə haqq qazandırmaq olar? Həmin bu şounu təşkil edənlər məhz öz ölkələrində belə bir terrorçuluq fəaliyyəti ilə məşğul olan birini qəbul edə və hətta ona Nobel Sülh Mükafatı da vermək barədə diskusiyalara, spekulyasiyalara belə yol verərlərdilərmi? Verməzdilər, birbaşa həbs etdirərdilər. Eyni şəkildə onunla davranılıb və burada qara-qışqırıq salmaq yersizdir, şounu da çox bayağı göstərir.

## Vardanyanın keçmişi ilə bağlı çox maraqlı faktlar

Diqqətə çatdıraq ki, 2014-cü ildə Donbassda təxribat əməliyyatlarına rəhbərlik edən keçmiş Baş Kəşfiyyat İdarəsinin polkovniki İqor Strelkov vaxtilə Vardanyanın keçmişi ilə bağlı çox maraqlı faktlar barədə etiraflar etmişdi. Onun sözlərinə görə, Vardanyan qondarma Donetsk Xalq Respublikasının keçmiş rəhbəri, hazırda isə Rusiya Dövlət Dumasının deputatı, Donbass və Krımda separatizmi qızışdırmaqda məsul olan ukraynalı əməkdaşlardan biri olan Aleksandr Borodayın sponsorlarından biridir. Ona görə də təəccüblü deyil ki, Ukraynanın "Sülhməramlı" mərkəzi Vardanyanı öz siyahısına daxil edib və onun Ukraynanın milli təhlükəsizliyinə, sülhə, bəşəriyyətin təhlükəsizliyinə və beynəlxalq asayişə qarşı qəsdən hərəkətlər etdiyini, habelə digər qanun pozuntuları törətdiyini bəyan edib. Fəaliyyəti araşdırıldıqca çox çirkli faktlar ortaya çıxan və qanunsuzluq etdiyi, qanun pozuntuları törətdiyi, beynəlxalq asayişə qarşı qəsdən hərəkətlər etdiyi Qərbin özünün belə dəstəklədiyi Ukrayna tərəfindən qeyd olunan birini ABŞ və Avropa necə dəstəkləyə, onun üçün necə "şou" təşkil edə, yarada bilər axı? Sülh ilə onun heç bir əlaqəsi olmadığı hər dəfə, hər yerdə öz təsdiqini tapırsa, bu nə görüntüdür, nə şoudur yaradılır? Bu şounu təşkil edən Qərb guya bilmirmi ki, terrorçu olaraq qəbul edilən və hazırda cinayət əməlləri sübut edilərək, həbsdə saxlanılan cinayətkar Ruben Ukrayna tərəfindən də sanksiyaya məruz qalıb? Bilmirmi ki, ukraynalı deputatlar Nobel Komitəsinə etiraz məktubu belə göndəriblər? Bu barədə Qərb də, Avropa da yaxşı bilir, amma özünü bilməməzliyə, görməməzliyə, qanmamazlığa vurur ki, bunun özü də elə göstərmə, şou sayılır...

Qərb bilmirmi ki, Vardanyan məhz gizli şəkildə Xankəndini rus sülhməramlılarının maşınında çirkli pal-paltar altında gizlənərək tərk edib? Bilir. Elə isə, çirkli alt paltarları arasında gizlənməyi, çox rüsvayçı şəkildə qaçıb aradan çıxmağı özünə rəva bilən personaj indi kimlərsə tərəfindən Nobel Sülh Mükafatına namizəd hesab olunurmu? Bunu da Qərb bilmirmi ki, Xankəndindən həmin o rüsvayçı şəkildə qaçışdan sonra Ruben Ermənistanda qalsaydı, bəlkə də hələ də azad şəkildə yaşaya bilərdi, amma o yenə də öz çirkin fəaliyyətini, terrorçuluğa dəstəyini dayandıra bilməyib, yenə də Xankəndinə qayıdıb, təxribatçı fəaliyyətini davam etdirməyə başlayıb və nəticədə də tutularaq Bakıya gətirilib? Qeyd edək ki, o, yəni kimlərsə tərəfindən axmaqcasına və absurd olaraq, Nobel Sülh Mükafatına layiq bilinən Ruben yenə də Xankəndindən qaçmaq istəyib və bu dəfə çirkli alt paltarlarının altında gizlənə bilməyib və tutulub. Yəni, Vardanyanın hər dəfə rüsvayçı şəkildə qaçış etməsi onun özünün belə cinayət törətdiyini başa düşməsindən irəli gəlir və belə olan halda Qərbə nə düşüb ki, onun müdafiəsi və "qəhrəmanlaşdırılması" üçün şou yaratmağı məqbul hesab edib? "Vardanyan şou" indi bəs Qərbin nəyinə lazımdır axı? Onun keçmişi ilə bağlı faktlar kimliyini, mahiyyətini ortaya qoyduğu halda yaradılan şou ancaq çirkin niyyətə xidmət edə bilər və heç Ruben üçün də nəzərdə tutulduğu belə şübhə doğurur.

## Vardanyanın pulu müqabilində onun "qəhrəman" obrazında təqdim edilməsi Qərb demokratiyasına ciddi bir ləkədir

"Vardanyan şou"-nun məhz ABŞ mediası və PR şirkətlərinin iştirakı ilə aparıldığı da bir sıra suallar ortaya çıxarır. Axı ABŞ-da yaxşı bilirlər ki, Ruben Vardanyan məhz Rusiya təhlükəsizlik orqanlarının agentidir. Belə olan halda USAİD, Samanda Pauer kimi yüksək çinli amerikalı, ABŞ-ın EDELMAN PR şirkəti və digərləri kimi Qərbin bəzi dairələri rusların agentinə nə adla dəstək verməyə qalxıblar? İstənilən bir ABŞ şirkətinin axı Ukraynada separatizmə birbaşa dəstək verən rusiyalı oliqarxı dəstəkləməsi heç bir məntiqə sığışmır. Pauer kimi yüksək çinli amerikalı məmurun məhz rusiyalı oliqarxa dəstək verməsi də heç bir şəkildə başa düşülmür. Dünyaya demokratiya, söz azadlığı, azad mətbuat barədə ağız dolusu öyüd verməyə, özünü nümunə kimi göstərməyə çalışan ABŞ-da CNN kimi telekanalların Vardanyanın pulu müqabilində onun "qəhrəman" obrazında təqdim edilməsi elə Amerikanın demokratiya dediyinə də, söz azadlığı barədə pafoslu ifadələrinə də, ümumilikdə, Qərb demokratiyasına ciddi bir ləkədir.

Guya ABŞ tədqiqat və təhlükəsizlik orqanlarına bəlli deyildimi ki, Vardanyan Qarabağa Rusiyanın müvafiq orqanları tərəfindən göndərilmişdi? Bəlkə onun məhz hazırki erməni baş nazir Nikol Paşinyanın yerinə Rusiya tərəfindən hazırlandığını və göndərildiyini də amerikalılar bilmirdilər? Bilirdilər. Yaxşı bəs, Nikol Paşinyan Qərbin özünün "kadrı" olduğu halda, Vardanyan da onu devirmək üçün göndərildiyi halda niyə ayrı-ayrı ABŞ şirkətləri, rəsmiləri, nəhəng media imperiyaları həmin o çevriliş üçün göndərilən birini indi müdafiə etməyə, dəstəkləməyə qalxıblar? Maraqlıdır, Qərbin dəstəklədiyi, Ermənistanda hakimiyyət kürsüsünə oturtduğu Nikol Paşinyana rəqib kimi ortaya atılan rusiyalı oliqarxın, Ruben Vardanyanın təbliğatı, onun "qəhrəmanlaşdırılması" kimi bir şou, "Vardanyan şou" Qərbin nəyinə lazımdır? Belə çıxır ki, Qərb hər nə yolla olursa olsun, düşmənini belə qəbul edərək də olsa, Azərbaycana qarşı hansısa çirkin əməllərin reallaşdırılması üçün əlindən gələni etməyi özünə rəva bilir ki, bu, artıq rəzalətdir, rüsvayçılıqdır. Hər halda, "Vardanyan şou" kimi bir rüsvayçılığı qəbul etməklər Qərb öz mahiyyətini növbəti dəfə ortaya qomuş oldu...

***İnam Hacıyev***

# "Heydər Əliyevin həyatının unikal səhifələri"




**Aprelin 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının təşkilatçılığı ilə Azərbaycan İlahiyyat İnstitutunda YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan Şahlar Əsgərovun "Heydər Əliyevin həyatının unikal səhifələri" kitabının təqdimat mərasimi keçirilib. Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.**

Tədbiri giriş sözü ilə açan Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov Heydər Əliyev ideyalarının xalqımızın mənəvi sərvəti olduğunu vurğulayıb. O, sözügedən kitabın Ümummilli Liderin Azərbaycan tarixindəki əvəzsiz xidmətlərinin ictimai diqqətə çatdırılması üçün mühüm mənbə olduğunu qeyd edib.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi mərhələlər dövlətçiliyimizin və xalqımızın intibahında tarixi əhəmiyyət daşıyıb: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə, milli oyanışın yaranması dövrü oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Dağılmaq ərəfəsində olan Azərbaycan dinamik inkişaf edən bir ölkəyə çevrildi. Bu, heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna çıxarmaq üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu Azərbaycanı daim qorumalıyıq".

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, təqdimatı keçirilən kitab faktları əks etdirir, onu fəlsəfi əsər kimi də səciyyələndirmək mümkündür.

Kitabın müəllifi, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan professor Şahlar Əsgərov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın tərəqqisinə həsr edib. Onun sözlərinə görə, müstəqil Azərbaycan Ulu Öndərimizin şah əsəridir. Ş.Əsgərov kitabda Heydər Əliyevin xalqımız qarşısında xidmətlərinin əks olunduğunu diqqətə çatdırıb. Müəllif Heydər Əliyevin milli-mənəvi dəyərlərə daim böyük önəm verdiyini və bütün həyatı boyu bu dəyərləri qoruduğunu vurğulayıb.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırdığını qeyd edib. Çünki Heydər Əliyevin xalqımız qarşısında xidmətləri o qədər böyük və zəngindir ki, bu, hər zaman tədqiqatlar mövzusu olacaq. Heydər Əliyev yolu Azərbaycanın gələcək inkişafında da mayak rolunu oynayacaq.

Milli Məclisin deputatı Ceyhun Məmmədov da çıxışında Ulu Öndər Heydər Əliyevin həm sovetlər dönəmində, həm də müstəqillik illərində xalqımız qarşısında xidmətlərindən bəhs edib. O, təqdimatı keçirilən kitabda Ulu Öndərimizin həyat və fəaliyyəti ilə bağlı məqamların faktlarla diqqətə çatdırıldığını vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan professor Sudeif İmamverdiyev isə çıxışında bildirib ki, Heydər Əliyev ideyaları əbədiyaşardır. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində yeri və rolu müstəsnadır. S.İmamverdiyev Şahlar Əsgərovun müəllifi olduğu kitabı qiymətli əsər kimi dəyərləndirib. O qeyd edib ki, bu nəşrdə Ulu Öndərimiz Heydər Əliyevlə bağlı çox mühüm faktlar öz əksini tapıb.

Tədbirdə, həmçinin AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru Səlahəddin Xəlilov, "91-lər"dən olan Novruz Quliyev, Qarabağ müharibəsi veteranı Cahangir Hüseynov və YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən olan Tahir Məmmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən bəhs edib, tədqimatı keçirilən kitabın bu irsin öyrənilməsi baxımından əhəmiyyətini diqqətə çatdırıblar. Onlar gəncləri Heydər Əliyev irsini dərindən öyrənməyə çağırıblar. Sonra tədbir diskussiya şəraitində davam edib və iştirakçıların sualları cavablandırılıb.





# "Xalq qələbələrimizdən ruhlanır, müxalifət isə kənarda göz yaşı tökür"

*MÜNASİBƏT*



"Bu gün Azərbaycan xalqı sevinc və qürur hisləri yaşayır. Bu da təsadüfi deyil. Çünki növbəti tarixi uğura imza atmışıq. Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət sayəsində bir güllə belə atılmadan Ermənistan tərəfi 30 ildən çoxdur işğal altında saxladığı Qazaxın 4 kəndini Azərbaycana geri qaytardı. Yaxın zamanlarda Qazaxın qalan 3 kəndi və Naxçıvanın Kərki kəndi Azərbaycana qaytarılacaq. Son üç il ərzində həm ərazi bütövlüyümüzü bərpa etmişik, həm suverenliyimiz tam təmin olunub, həm də işğal altında olan kəndlərimizi qan tökmədən geri alırıq. Bundan əlavə Rusiya sülhməramlıları vaxtından əvvəl Qarabağ torpağını tərk etdilər. Bütün bunlar sözün əsl mənasında tarixi hadisələrdir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib. O vurğulayıb ki, ölkə başçısının müəllifi olduğu bu siyasəti xalqımız birmənalı şəkildə dəstəkləyir: "Belə bir vəziyyətdə özünü radikal müxalifətin siması kimi təqdim etməyə AXCP və onun funksionerləri 5 may mitinqindən danışırlar. Bu mitinqlə bağlı əsas şüarlarından biri də odur ki, sərbəst toplaşma azadlığı təmin edilsin. Ölkəmizdə bu azadlıq yoxdur? Əlbəttə ki var. Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlətdir. Ölkəmizdə bütün hüquq və azadlıqlar tam təmin edilib. Əhalimizin 80%-dən çoxu internet istifadəçisidirsə, bunu başqa necə qiymətləndirmək olar? Kim hansı mövqeyi ifadə etmək istəyirsə, edir. Kim nəyi yazmaq istəyirsə, yazır. Sərbəst toplaşmaq azadlığının olmaması ilə Azərbaycanı ittiham edənlər gözünün içinə qədər yalan danışırlar. Azərbaycan dövləti dəfələrlə müxalif siyasi qruplaşmalara bildirib ki, Bakının ən böyük rayonu olan Qaradağ rayonu ərazisində bu məqsəd üçün xüsusi yer ayrılıb. Həmin ərazidə istədikləri cür mitinq keçirə bilərlər. Bakının mərkəzində 5-6 km uzaq olan bir əraziyə getmək bu qədərmi çətindir? Onlar üçün çətin olan ora insanları toplaya bilməkdir. Öz qohum-əqrəbalarından və başlarını aldatdıqları bəzi gənclərdən başqa heç kimi apara bilməyəcəklər".

Deputat qeyd edib ki, şəhərin mərkəzində onsuzda əhali sıxlığı var: "Bu sıxlıqdan istifadə edərək kənardan şəkil çəkmək istəyirlər ki, guya onların hamısı mitinqdə iştirak edir. Hesab edirəm ki, müxalifət bugünkü gündə özünə sual verməlidir ki, xalq niyə onları dəstəkləmir? Mən öz ehtimallarımı deyim. Çünki xalqın gözü tərəzidir. Xalq ona görə müxalifəti boykot edir ki, onlar xalqın sevincinə sevinə bilmirlər. Xalq tarixi qələbələrdən ruhlanır. Amma müxalifət kənarda qalıb göz yaşı tökür, Bakıda çaxnaşma yaratmaq, ölkəmizdə sabitliyi pozmaq istəyirlər. Arzuları isə hər zaman gözlərində qalacaq. Çünki xalq onlardan çoxdan imtina edib".

***Ləman Sərraf***

# "Euronews": Bakı limanı ticarət və logistika sahəsində qlobal lider rolunu daha da möhkəmləndirmək əzmindədir

"Euronews" telekanalı "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC haqqında geniş reportaj hazırlayıb. Reportajda Xəzər dənizinin sahilində, strateji mövqedə yerləşən Bakı limanının qlobal ticarətin tələbatını ödəmək üçün genişləndiyi, eyni zamanda, davamlı inkişafa və yerli layihələrə investisiya qoyuluşuna üstünlük verildiyi vurğulanıb.

Qeyd olunub ki, Bakı limanı Xəzər dənizinin ən qədim və strateji əhəmiyyətli limanı olmaqla yanaşı, şərqlə qərbi birləşdirən ticarət yolunun üzərində yerləşən əsas nəqliyyat və logistika mərkəzidir.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov "Euronews" telekanalına müsahibəsində bildirib ki, liman Mərkəzi Avrasiyanın mərkəzində yerləşdiyi üçün bütün istiqamətlər üzrə əsas halqadır: "Bakı limanı XXI əsrin beşulduzlu mərkəzinə çevrilir. Bakı limanı təkcə qitələri birləşdirir, həm də bir hissəsi olduğu regionun iqtisadi inkişafına birbaşa töhfə verəcək".

Reportajda Bakı limanının qlobal ticarətin artan tələblərinə cavab verərək imkanlarını artırdığı qeyd olunub. Həmçinin ötən il yüklərin ümumi daşınma həcminin 2020-ci ildən bu yana 51 faiz artaraq 7,3 milyon tondan çox olduğu vurğulanıb. Taleh Ziyadov müsahibəsində qeyd edib ki, yüklərin daşınmasında yüksək effektivliyə malik işçi komandaları mövcuddur: "Bütün bu amillər yüklərin həcminin artmasına və beynəlxalq müştərilərin Bakı limanına etimadının artmasına səbəb olub".

"Texnologiyanın inkişafı, rəqəmsallaşma və avtomatlaşdırma Bakı limanının inkişaf strategiyasının əsas sahələridir. Limanın ətraf mühitə və ekosistemə təsirini azaltmaq üçün ekoloji davamlılıq siyasətləri də mövcuddur. Burada tullantı sularının emal suyuna çevrilməsi üçün zavodun tikintisi nəzərdə tutulur. Həmçinin paytaxt Bakıdan 70 kilometr aralıda, Ələtdə yerləşən limanda Ro-Ro terminalları, bərə terminalı və ümumi yük terminalı daxil olmaqla 13 yanalma körpüsü var. İstehlak malları, avtomobillər və xammal terminalları ilə yanaşı, 60 min ton müxtəlif gübrə saxlama anbarlarını özündə birləşdirəcək gübrə terminalı inşa edilir",- deyə reportajda bildirilib.

Bundan başqa, reportajda keçən il limanın BMT-nin Qlobal Sazişinə qoşularaq 2035-ci ilə qədər sıfır karbon emissiyasına nail olmağı hədəflədiyi vurğulanıb. Bakı limanının Əməliyyatlar üzrə baş direktoru Yucin Xi müsahibəsində bildirib ki, Bakı limanı bölgədəki digər limanlar üçün bir model olmaq, karbon emissiyalarını azaldaraq yaşıl siyasətlərin, yaşıl prosedurların və əməliyyat proseslərinin aparıcı müdafiəçisi olmağı hədəfləyib: "Gəmilərin emissiyaları bütün karbon emissiyalarının təxminən 60 faizini təşkil edir. Bu, təxminən 15-20 il ərzində emissiyaları xalis sıfıra endirmək üçün strateji planımıza əsas verir".

Diqqətə çatdırılıb ki, limanın konsepsiyası təkcə ticarətlə bağlı deyil, həm də ətraf mühitin və canlı təbiətin qorunması ilə bağlıdır. Limanın sularında hər il Afrikadan limana köç edən 200 flamingo da daxil olmaqla 40-dan çox quş növü yaşayır. Bundan əlavə, limanda 60 mindən çox ağac və bitki əkilməklə yaşıllıq sahələri genişləndirilir, həmçinin 2025-ci ilə qədər Ələt ərazisində daha 100 min ağacın əkilməyi planlaşdırılır. Reportajın sonunda bildirilib ki, strateji inkişaf planları ilə Bakı limanı ticarət və logistika sahəsində qlobal lider rolunu daha da möhkəmləndirmək əzmindədir.

# Evlərdə yeni otaq:
# SOYUNMA-GEYİNMƏ OTAĞI



***Son zamanlar geyimlərin və daha geniş sahəsi olan evlərin qarderobları soyunub-geyinmə otaqları ilə əvəz edilmişdir. İndi bir çox evlərdə dolabda ilişib qalan paltarların öz otağı var. Artan həyat tempi, dəb və məhsul müxtəlifliyi geyim alışını da artırır. Dolablar isə hər paltara uyğun aksesuarlar, ayaqqabı və çantalara məruz qalır. Bu zaman soyunub-geyinmə otağı ortaya çıxır. Soyunub-geyinmə otağının necə olması ilə maraqlanırsınızsa, burada sizin üçün bəzi qızıl məsləhətlər var.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Əvvəlcə yer ayırın

Lazım olan ilk şey, soyunma otağına çevirə biləcəyiniz bir sahədir. Bunun üçün istifadə etmədiyiniz otağı və ya böyük yataq otağınızın bir küncünü seçə bilərsiniz. Əsas olan sahənin eni deyil, onun faydalı olmasıdır. Beləliklə, hətta kiçik sahələri də dəyərləndirmiş olacaqsınız. Çoxlu rəflər və asılqanlarla bu məkan sizin üçün çox dəyərli olacaq. Otaqda heç bir ölü yer buraxmayacaq şəkildə planlaşdırmaq yaxşıdır. Yataq otağınızda soyunub-geyinmə otağı üçün yer ayıracaqsınızsa, vanna otağına yaxın yer seçmək işinizi asanlaşdıracaq.





## Rəng seçiminə qərar verin

Soyunma otağının dekorasiyası çox vacibdir. Bu otaqlar ümumiyyətlə dar və dörd divarla doldurulacağından, havasız və darıxdırıcı olmamalıdır. Yataq otağınızın dekorasiyasına uyğun üslub seçə və ya unikal dizayn edə bilərsiniz.

Əşyalarla dolu bir otaq olacağı üçün ən çox iki rəng istifadə etməlisiniz. Rənglərdən biri açıq rəng olmalıdır. Ağ ideal seçim olardı. Eyni zamanda, sadəliyi ən yüksək səviyyədə saxlasanız, otaq kifayət qədər sakit və qəşəng olacaq.

## Şkaflar və rəflər yetərli olmalıdır

Soyunma otağında vacib məqam interyerin dizaynıdır. Bütün əşyalarınızı rəflərə uyğunlaşdırmaqla yanaşı, onların faydalı olması da çox vacibdir. Otağın dizaynı zamanı ayaqqabı, aksessuar saat və çantalar nəzərə alınmalıdır. Bu cür paltar və aksessuarlar qruplara bölünməli və uyğun rəflər, asılqanlar nəzərə alınmalıdır. Məsələn, ziyafət paltarları üçün tam uzunluqlu asılqanlar, köynəklər üçün isə iki qatlı asılqanlar seçilməlidir. Böyük və yararsız rəflər yerinə, əşyaları daha çox təsnif etməyə imkan verəcək kiçik rəflərə və şkaflara üstünlük verilməlidir.

Alt paltar, corab və zərgərlik kimi əşyalar üçün rəflər seçməlisiniz. Şkafların aşağı mərtəbələrində siyirtmə yuxarı mərtəbələrdə isə asma şkaflar quraşdıra bilərsiniz. Qapısız şkafların olması bütün əşyaları görmək və seçim etmək üçün ideal olardı. Ancaq toz problemi ilə məşğul olmaq istəmirsinizsə, qapılı şkafları seçməlisiniz.



Qarderoblarda eynək, çanta, pulqabı, şal, qalstuk kimi məhsullar var ki, onları hara qoyacağınızı bilmirsiniz. Soyunma otağını dizayn edərkən bu elementləri unutmamalısınız. Eynək və ya pulqabı üçün rəflərin olması mümkün olsa da, kiçik asılqanlar şal və ya qalstuk üçün ideal olardı. Bu cür əşyaların öz yeri varsa, otaq daha faydalı olacaq.

ARAŞDIRMA

## Boy güzgüsünü unutmayın

Güzgünün yerləşdiyi yerin işıqlandırma baxımından səmərəli olduğundan əmin olmalısınız. Boş divar varsa, onu güzgü üçün ehtiyat edə bilərsiniz və ya şkafın qapısına güzgü quraşdıraraq dar yerlərdən istifadə edə bilərsiniz.



Soyunma otağınız kifayət qədər böyükdürsə, makiyaj masası üçün yer ayıra bilərsiniz. Bunun üçün keyfiyyətli güzgü mütləqdir. Makiyaj masasında yaxın və uzaq görmə təmin edən iki fərqli güzgü seçə bilərsiniz. Beləliklə, soyunub-geyinmə otağına girdikdən sonra oradan tamamilə hazır vəziyyətdə çıxa bilərsiniz.

Soyunub-geyinmə otağında birdən çox güzgüdən istifadə edirsinizsə, bu güzgülərin bir-birinə baxmadığından əmin olmalısınız. Bir-birinə baxan güzgülərdə və ya bir-birinin görmə sahəsində təsvirlər bir-birinə qarışdıqca mürəkkəb bir görüntü meydana gələcək. Nəinki özünüzü yaxşı görə bilməyəcəksiniz, həm də otaq tutqun olacaq. Odur ki, güzgüləri seçərkən onların yerini müəyyənləşdirməklə yanaşı, diqqətli olmalısınız.

## İşıqlandırma yaxşı olmalıdır

Dar və sıx yerdirsə, otaq qaranlıq olacaq. Buna görə də onu düzgün işıqlandırmaq vacibdir. İşıqlandırma əşyaları seçməkdə daha asan və özünüzü güzgüdə yaxşı görmək üçün çox vacibdir. Tavanın ortasındakı işıqlandırma bu otaq üçün qeyri-kafi ola bilər, həmçinin kölgələrin hər yerə düşməsinə səbəb ola bilər. Bunun əvəzinə, tavanda bərabər paylanan spot lampalardan istifadə etmək lazımdır. Beləliklə, işıq bərabər paylanacaq və otaqdakı hər künc parlaq olacaqdır.

Hətta dərin şkaflarda işıqlandırma təmin etmək ideal olardı. Əks halda, qaranlıq şkafda axtardığınızı tapa bilməyəcəksiniz. İşıq seçimi daha çox otağın genişliyinə əsaslanmalıdır.

Güzgünü düzgün yerə qoysanız və geyindiyinizə düzgün işıqda baxsanız, daha qəşəng göründüyünüzü hiss edəcəksiniz. Geyindiyinizi bəyənməyiniz üçün işıq seçimi vacibdir. Bu məqsədlə, tam uzunluqlu güzgünün kənarlarına spot və ya LED işıqlandırma quraşdıra bilərsiniz. Beləliklə, güzgünün hər yerindən bərabər işıq gələcək və özünüzü daha aydın görə biləcəksiniz.

## Bir puf və ya kreslo əlavə edin



Soyunma otağında çox vaxt sərf olunduğundan, kreslo və ya puf ideal olardı. Zaman- zaman dincəlmək, oturarkən geyinmək və ya oturarkən paltarınızın necə göründüyünü görmək üçün mütləq stul lazımdır. Ən əsası, ayaqqabı geyinərkən yorulmamaq üçün kresloya sahib olmaq vacibdir. Hətta bu pufların altında saxlama yerindən istifadə etməklə özünüz üçün daha çox yer yarada bilərsiniz.

***Ayşən Vəli***

***Bəşəriyyətin atom-nüvə texnologiyasının gücü və dəhşətləri ilə tanışlığı 1945-ci ilə təsadüf edib. 2-ci Dünya Müharibəsində faşist Almaniyasının təslim olmasından 3 ay sonra ABŞ tərəfindən Almaniyanın müttəfiqi olan Yaponiyaya qarşı atom bombalarının tətbiqi qlobal şok effekti verdi. Avqustun 6-da və 9-da Xirosima və Naqasaki şəhərlərinə atılan 2 atom bombası bu şəhərləri yer üzündən sildi, yüz minlərlə insanı bir anda külə döndərdi, milyonlarla insanı ağır şüalanmaya məruz qoydu. Yüz minlərlə insanın görünməyən düşmən tərəfindən öldürülməsi bəşər tarixində sözün hər iki mənasında görünməmiş bir dəhşət idi...***

1949-cu ildə qlobal güc balansını təmin etmək üçün SSRİ-də də atom bombası yaradıldı, lakin bu bomba heç vaxt tətbiq olunmadı. Sovet İttifaqı atom texnologiyasından dinc məqsədlərlə istifadəni qarşıya məqsəd olaraq qoymuşdu və atom enerjisi əldə etmək üçün elmi işlər aparırdı. Nəhayət 1954-cü ildə SSRİ-də (Obninsk şəhərində) dünyanın ilk Atom Elektrik Stansiyası (AES) işə salındı. Sonralar bu cür stansiyaların ABŞ və Avropada da tikilməsi ilə dünyada atom enerjisi dövrü başladı.

Lakin 1986-cı ildə SSRİ-də tarixin ən böyük texnogen qəzasının baş verməsi bu prosesi bir qədər ləngitdi. 1986-cı ilin aprelin 26-da dünyanın ən modern texnologiyalı atom elektrik stansiyası sayılan Çernobıl AES-in 4 nömrəli reaktorunda partlayış oldu. Və bəşəriyyət atom erasının növbəti dəhşətli xəbərdarlığı ilə tanış oldu.

# Kabuslar şəhərinin dünyanı sarsıdan faciəsi



## Qafqazın ortasında oyanmaqda olan dəhşətli bir əjdaha var...



ARAŞDIRMA

### Çernobıl faciəsi niyə və necə baş verdi?

SSRİ-nin qərbində, Ukraynanın şimalında yerləşən 50 min əhalisi olan Pripyat şəhəri. Yaşıllıqlar içində salınmış, müasir, nümunəvi, gözəl və gənc bir şəhər. Onu "atom şəhəri" də adlandırırdılar. Şəhərin 3 km-liyində dünyanın və SSRİ-nin ən müasir texnologiyalı atom elektrik stansiyası işləyir. Bu stansiya onlarla şəhər və kəndi, milyonlarla insanı elektrik enerjisi ilə təmin edir. Stansiya əməkdaşları çox yüksək əməkhaqqı alır, hətta 2 min manat maaş alanlar da var. Nəticədə şəhər əhalisinin ümumi sosial vəziyyəti də çox yüksəkdir. 16 yaşlı Pripyat xoşbəxt bir həyat yaşayır...

1986-cı il, aprel ayının 25-i. Pripyat şəhəri yaxınlığındakı Lenin adına Çernobıl Atom Elektrik Stansiyasının 4 nömrəli reaktorunda elektrik cərəyanını dövrədən ayırandan sonra turbinlərin nə qədər dövr edəcəyini və bu yolla onun növbəti iş gününə hansı səviyyədə hazır olacağını müəyyən etmək üçün xüsusi test keçirilməsinə hazırlıq işi görülür...

"Qaçış rejimi" adlanan belə rejim turbogeneratorun rotorunun kinetik enerjisindən təminatçı və əsas sirkulyasiya nasoslarının hər hansı bir fövqəladə vəziyyət zamanı stansiyanın elektrik enerjisindən məhrum olacağı təqdirdə, AES-in daxili ehtiyaclarını təmin etmək üçün istifadəsinin mümkünlüyü sınaqdan keçirilməliydi.

Belə dayandırmalar zamanı adətən qeyri-standart və ya müxtəlif proqramlar çərçivəsində avadanlığın reqlament sınaqları keçirilirdi. Bu, həm də ekstremal vəziyyətlər zamanı stansiyanın iş rejiminin saxlanması üzrə proqram təminatının formalaşdırılması üçün edilirdi. Əvvəllər də belə testlər keçirilmişdi, lakin heç bir problem yaranmamışdı. Bu dəfə elə olmadı

Saat 23.46. 4-cü blokun idarəetmə mərkəzində gərginlik var, ölkənin ən yaxşı nüvə mühəndisləri, operatorlar və texniki heyət riskli bir sınaq testinə hazırlaşır.

Saat 00:30. SSRİ-nin və dünyanın ən güclü nüvə fiziklərindən biri olan Anatoli Dyatlovun əmri ilə operator reaktorun gücünü 500 MVt-a salır, sonra isə sistem lokal avtomatik tənzimləmə sisteminə keçirilir.

Saat 01.00. Cəmi 24 dəqiqədən sonra dünyaya hansı fəlakətin üz verəcəyini ağlına belə gətirməyən texniki personal elektrik cərəyanını kəsir, turbinlərə gedən soyuducu su tədricən azalmağa başlayır. Reaktor vasitəsilə elektroenerji və istilik sərfiyyatının belə artımı mütləq şəkildə buxar həcmini aşağı salırdı. Buxar isə nüvə enerjisi ilə işləyən reaktorun soyuması üçün əsas şərtdir.

Bir qədər keçir, reaktora daxil olan su qızmağa başlayır. Lakin həmin su soyuq qalmalı, reaktorun ətrafındakı borularla fırlanaraq qızmalı və buxara çevrilməli idi. Operatorlar gərginliyin 700 meqavatdan aşağı salınmasının təlimata zidd olduğunu deyərək riskin yüksək olduğunu bildirib etiraz edirlər, lakin Dyatlov sınağın başa çatdırılmasında israrlı idi

Saat 01.22. Turbinlərdə su çatışmazlığı kritik həddi keçir. İdarəetmə pultunun xəbərdarlıq siqnalları ard-arda səslənməyə başlayır, təhlükəni fərq edən operatorlar aztəzyiqli reaktoru bağlamaq istəyir. Tək bir imkan qalmıdşı və bu son imkana əl atılır- lakin reaktora endirilən qrafit çubuqları ard-arda qırılır. Qrafit çubuqların olmaması reaktor üzərində nəzarətin tam itirilməsi deməkdir. Operatorlar reaktorun gücünü nəzərdə tutulmuş səviyyədə saxlaya bilmirlər və enerji blokunun gücü 30 MVt-a düşür.

Saat 01:23. "Qaçış" enerjisinin verildiyi generatora qoşulmuş nasosların sürəti aşağı salındığından reaktorun "hərarət"i maksimuma çatır və ən son çarə olaraq operator pultundan AZ-5 qəza söndürmə rejimi aktiv edilir. Lakin artıq gec idi. Reaktorun içindəki nüvə yanacağı borucuqları əriyib, reaktor üzərində nəzarət imkanı itirilib, soyutma sistemləri də sıradan çıxıb. Artıq heç bir qüvvə bu dəhşətli qəzanın qarşısını almağa qadir deyil...

Saat 01:24. Ard-arda 2 dəhşətli partlayış baş verir və reaktor darmadağın olur. Güclü zərbə reaktoru əhatə edərək onun xarici aləmlə əlaqəsinə imkan verməyən 1200 tonluq qoruyucu dəmir çəmbəri yerlə yeksan edir. Atmosferə 50 ton radiaktiv toz püskürür. Ətrafa 700 tondan çox qrafit hissələr dağılır. Gecəni gündüzə çevirən güclü alovları və yuxarı buxarlanan ultrabənövşəyi radioaktiv toz kolonunu onlarla kilometr məsafədən seyr etmək mümkün idi



### "Sarkofaq" əməliyyatı: dünya belə xilas edildi

Bu, atom elektrik stansiyaları tarixində indiyədək rast gəlinməmiş ən dəhşətli qəza idi, onunla necə mübarizə aparılacağı heç kimə aydın deyildi. Nə SSRİ-də, nə də dünyada belə bir praktika yox idi.

Həyəcan siqnalı ilə stansiyaya üz tutan çox sayda yanğınsöndürən maşınlar reaktor üzərinə fasiləsiz su şırnaqları yönəltsələr də, bu, heç bir effekt vermədi. İlk dəqiqələrdə zənn edildiyinin əksinə, bu adı yanğın deyildi. Yanğınsöndürənlər bütün gecəni mübarizə aparsalar da, reaktordakı yanğını söndürmək mümkün olmadı, yalnız yanğının yayılmasının qarşısı alındı. Ölümcül dozada radiaktiv şüalanmaya məruz qalan yanğınsöndürənlər geri çəkildi və xəstəxanaya yerləşdirildi.

Səhər saatlarından Sovet ordusunun kimyəvi mübarizə briqadaları əraziyə yönəldildi, qəza idarəetmə komissiyası və operativ qərargah yaradıldı, fəlakətin böyüməsinin qarşısını almaq üçün bütün mümkün tədbirlər görüldü. Lakin reaktora yaxınlaşmaq mümkün deyildi və qəzadan əvvəl tam doldurulmuş reaktordakı nüvə yanacağının böyük həcmdə havaya buxarlanması davam edirdi.

Gün ərrində aparılan mübarizədən sonra görülən tədbirlərin mənasız olduğu, radiasiyanın azalmaq əvəzinə artdığı aydın olandan sonar axşam fövqəladə qərargahın müşavirəsində əhalinin evakuasiyasına qərar verildi.

Aprelin 27-də 50 min əhalisi olan Pripyat şəhərində və stansiya ətrafındakı qəsəbə və kəndlərlə yaşayan əhali- ümumilikdə 135 min nəfər sakin evakuasiyasına başlandı. Onlar bir daha heç vaxt öz evlərinə dönə bilməyəcəklərini bilmirdilər...

AES ərazisində isə amansız mübarizə aparılırdı. 9 gün, 9 gecə 2 minə yaxın vertolyot və təyyarə, minlərlə avtotexnika partlayış baş verən 4-cü blokun reaktoru üzərinə fasiləsiz olaraq qum, çınqıl və digər maddələr tökürlər. Lakin radiasiyanın gücündən ən güclü mühafizə geyimləri ilə belə reaktora yaxınlaşmaq mümkün olmurdu. Reaktora radiopultla idarə olunan sürücüsüz avtomaşınlarla müxtəlif materiallar da tökürlər. Şüalanma o qədər güclü idi ki, bu texnikalar da sıradan çıxdı. Ümid ancaq canlı qüvvəyə qalmışdı. Könüllülük əsasında xüsusi qruplar yaradıldı və mübarizə davam etdi. Xüsusi geyimlərdə olan insanlar reaktorun damı üzərində maksimum 20 saniyə qalmaqla dağılmış reaktor çuxuruna material atmalıdırlar. Hər 20 saniyədən bir adamlar və geyimlər dəyişdirilir Paralel olaraq, minlərlə maşın kimyəvi material daşıyır

Reaktoru gömməcək beton sarkofaqa lazım olacaq materialları istehsal etmək üçün yaxınlıqda ağlagəlməz sürətlə 3 zavod tikilir Reaktor təkcə yerüstündən deyil, yerialtından da ətraf aləmdən blok edilməliydi. Yüzlərlə şaxtaçı reaktor altına gedən tunel qazır- 40-50 dərəcəyə çatan istilik şəraitində bir neçə dəqiqədən bir dəyişməklə Tunelə kondisonerlər çəkilsə belə faydası olmurdu

Qəzanın nəticələrinin aradan qaldırılması üçün işləyən on minlərlə adam üçün teztez dəyişməli olduqları bütün geyimlər, qidalar, su, çox sayda ləvazimatlar çox uzaqdan daşınıb gətirilir. Hər dəfə AES-dən və şəhərdən çıxan və geri qayıdan minlərlə maşın kimyəvi dərmanlarla yuyulur.



Moskvada ən güclü nüvə fiziklərinin, atom mühəndislərinin iştirakı ilə gərgin müzakirələr aparılır. Ən güclü mütəxəssislər və xüsusi texnikalar əraziyə yönəldilir.

Bütün ölkə ayağa qalxıb. Bütün respublikalardan köməyə gəlmiş yüz minlərlə könüllü və ordunun kimyəvi mübarizə hissələri var gücləri ilə çalışır. Necə bir nəhəng, ağır və təhükəli iş görüldüyünü təsəvvürə belə gətirmək mümkün deyil.





Çernobil xilasediciləri dünyanın ən böyük qəhrəmanlarıdır. Həyatlarını qurban vermək bahasına olsa da dünyanın qalan hissəsini xilas etmək üçün var gücləri ilə çalışdılar.

Qısa müddətdə reaktor üzərində 5 min tondan ibarət qum və çınqıl dağı əmələ gəlir. Reaktor betona gömülür. Lakin, 130-dək azərbaycanlının da iştirak etdiyi "Sarkofaq" əməliyyatı ciddi nəticə vermir, təhlükəli şüalanma yenə də davam etməkdə idi...

Ən dəhşətli təhlükə isə qarşıda idi- reaktorun altındakı 200 tonluq qızmış radiaktiv kütlə qalın beton divarları əritməkdə idi və təcili qarşısı alınmasa bu radiaktiv kütlə yaxınlıqdakı su kanallarına, gölə və yeraltı sulara qarışaraq çox böyük bir əraziyə yayıla, Avropa qitəsinin yarısını zəhərləyərək on milyonlarla insanı öldürə bilərdi. Kimlərsə reaktorun ətrafındakı yeraltı anbarlarda toplanmış radiaktiv sulara baş vurmalı və cəmi bir neçə dəqiqə ərzində orada müvafiq kranları axtarıb tapmalı idi. 3 Sovet insanı könüllü olaraq bəşəriyyəti xilas etmək üçün ölüm mənbəyinə daldılar və göstərdikləri möcüzəvi qəhrəmanlıq sayəsində öz həyatları bahasına milyonları xilas etdilər. (Həmin qəhrəmanlara orada abidə ucaldılıb.)

4-ci blokun ucsuz-bucaqsız tunellərinə çatmaq və digər bloklara nüvə yanacağının sızmasının qarşısını almaq və reaktoru yeraltından da izolyasiya etmək üçün üçün minlərlə şaxtaçı uzaq məsafədən tunellər qazmağa başladı. 40-50 dərəcəyə çatan istilikdə qəhrəmancasına mübarizə apardılar və dəmir beton sədlərlə reaktoru əhatələdilər. Bütün bunların nəticəsində reaktordakı nüvə yanacağının kənara yayılmasının qarşısı alındı.

Qəzanın nəticələrini aradan qaldırmaq üçün 7 min azərbaycanlı da daxil olmaqla 600 mindən artıq Sovet insanı qəhrəmancasına mübarizə apardı. Onların bir çoxu şüalanmaya məruz qalaraq müxtəlif xəstəliklərə tutuldular, lakin dünyanı qorxunc bir təhlükədən xilas etdilər.

Yeri gəlmişkən, Azərbaycanda Çernobıl əlillərinə xüsusi qayğı göstərilir. Onlar dövlət tərəfindən mənzillər, avtomobillərlə təmin olunur, xüsusi müavinət alırlar. "Atom adamlar" buna layiqdirlər, çünki dünyanı xilas edən həqiqi qəhrəmanlardır.

## "Çernobıl"ın sirri əbədi olaraq betona gömülüb

Çernobıldakı qəzanın əsl səbəbi haqda müxtəlif versiyalar var. AES-in 4-cü reaktorundakı qəzanın operatorun səhvi, sınaqların düzgün hesablanmaması, reaktora kürə ildırımının düşməsi, SSRİ-yə ağır zərbə vurmaq üçün Qərb dövlətlərinin stansiyaya yerləşdirdiyi əməkdaşın təxribatı...

Lakin şahidlərin və mütəxəssislərin çoxu texniki nasazlığa ya da operatorun səhvinə inanmır. Versiyalar arasında öncədən stansiyaya yerləşdirilmiş xarici xüsusi xidmət orqanlarının adamının fəlakətə qəsdən səbəb olduğu da var. Məhz bu hadisədən sonra SSRİ böyük itkilər verdi və fürsətdən yararlanan ABŞ başı daxili problemə qarışmış Sovet İttifaqının beynəlxalq mövqelərini zəiflətdi. Üstəlik, AES yaxınlığındakı çox nəhəng radar antenaları divarı Avropa və Amerika üzərində "quş uçurtmurdu" və bu sistem də AES-dən qidalanırdı, qəza ilə birgə o da sıradan çıxdı. Bu da versiyanı gücləndirən əsas arqumentlərdən sayılır.

Baş operator, SSRİ-nin və dünyann ən güclü nüvə fiziklərindən olan Anatoli Dyatlovun sözlərinə görə, gecə yarısına yaxın o, stansiyanın ərazisində reaktor qrafitinin aşkarlanmasından sonra reaktorun məhv olacağına əmin olub. Bu məlumat 4-cü enerji blokunun növbə nəzarətçilərindən biri Yuri Trequbun xatirələri ilə də təsdiqlənir. Bu da diversiya versiyasını gücləndirir.

Üstəlik, AES-lər partlamır, onlar atom bombası deyillər. Lenin adına AES isə ən müasir və çoxsaylı təhlükəsizlik sistemləri ilə təchiz olunmuşdu və dünyanın ən modern, elektron AES-i sayılırdı. Bu qəza ilə bağlı şübhələr, sirlər, ziddiyyətlər çoxdur. Hələ də hər şey sonadək aydın deyil.

Əsl sirr isə, 4-cü reaktorun heç vaxt açılmayacaq beton sarkofaqı altında əbədi olaraq gömülüb. Bir neçə il əvvəl isə beton sarkofaqın üzərində xüsusi materialdan olan konstruksiya ilə daha bir sarkofaq inşa edilib.

## "Kabuslar şəhəri"ndə əbədi donmuş həyat

SSRİ-yə bu qəza çox baha başa gəldi-AES-lərin verdiyi qazancdan da xeyli baha. Hazırda Çernobılın 30 kilometr radiusundakı ərazilər ölü zona hesab edilir və orada insanların yaşaması qəti qadağandır

5 milyon hektara yaxın torpaq radioaktiv şüalanmaya məruz qaldığı üçün indiyədək istifadəsiz qalıb. Qəzanın fəsadlarının aradan qaldırılması üçün Çernobıl AES ətrafında onlarla kiçik qəsəbə və kənd boşaldıldı. 1970-ci ildə salınmış müasir və gözəl Pripyat şəhəri isə kabuslar şəhərinə çevrilib.

*Ardı Səh. 10*



# Kabuslar şəhərinin dünyanı sarsıdan faciəsi

## Qafqazın ortasında oyanmaqda olan dəhşətli bir əjdaha var...

ARAŞDIRMA

Əvvəli Səh. 9

İ.Siqsqordun "Palle dünyada tək-tənha" adlı nağılının motivləri əsasında çəkilmiş eyni adlı Sovet multfilmi mənə həmişə Pripyat şəhərini xatırladır. Balaca Palle yuxuda görür ki, şəhərdə hamı yoxa çıxıb, küçələrdə evlərdə heç kim yoxdur, həyat donub...

Pripyatdan çəkilmiş sənədli filmlər eyni mənzərələri nümayiş etdirir və bu səhnələr adamı dəhşətə gətirir. Boş, adamsız, sakit, səliqəli və müasir bir şəhər. Sanki həyat bir anlığa dayanıb, insanlar harasa yoxa çıxıblar. Evlərin çoxunun qapısı açıqdır, stolun üstündə yeməklər, bağçalarda oyuncaqlar, məktəblərdə dərs ləvazimatları, zovod-fabriklərdə istehsal avadanlığı, küçələrdə nəqliyyat, parklarda karusellər hər şey əbədi olaraq donub qalıb...

Şəhər tərk edildikdən sonrakı dövrlərdə ətraf bölgələrdən gələn bəzi şəxslər Pripyatı qarət etdilər. Şəhərdəki bütün mənzillərdən avadanlıqlar və məişət cihazları, müəssisələrdən, idarələrdən bütün əşyalar, maşın və texnikaların hissələri, hətta tikinti materiallarını sökərək daşıdılar və Ukraynanın digər şəhərlərində satdılar. Beləliklə, radiasiyalı əşyalar bütün Ukrayna ərazisinə yayılmış oldu.

Şəhər ətrafında yüksək radiasiyalı minlərlə vertolyot, müxtəlif avtotexnika və traktorların "əbədi paradı"nı görmək olur. "Kabuslar şəhəri"ndə insan qismən təhlükəsiz halda bir də ancaq 300 ildən sonra yaşaya biləcək. Bu ərazi ancaq 50 min ildən sonra tam təhlükəsiz hala gələcək...

Hazırda Pripyatda insan yoxdur, yalnız hərdən bir neçə saatlıq gəlib gedən turistlər görünür. İnsanın olmadığı bu 38 ildə şəhər təbii həyata qayıdıb, hər tərəf sıx yaşıllığa bürünüb, müxtəlif heyvanlar çoxalıb, bir növ təbii parka çevrilib. Deməli, dünyanın yeganə problemi insan imiş.

Bu qəza bəşəriyyətin taleyinin hər an böyük təhlükə altında olduğu barədə hələ ötən əsrin ortalarında alimlər tərəfindən edilən xəbərdarlığın necə vacib olduğunu bir daha ortaya qoydu. Lakin tarix göstərdi ki, insanlar bu "dərs"dən nəticə çıxara bilməyiblər.

### AES tərəfdarları üçün növbəti "soyuq duş"

2011-cü ildə martın 11-də Yaponiyada zəlzələ və sunami sonrası baş vermiş "Fukusima" AES qəzası "Çernobıl"ı təkrarladı. "Fukuşima"nın radiasiyası yeraltı sulara və Sakit okeana da qarışdı və dəniz sularında radiasiya 10 min dəfə artdı. Milyonlarla insan, yüz milyonlarla canlı radiaktiv şüalanmaya məruz qaldı. Güclü şüalanmadan 1 milyonadək insanın xərçəngdən öləcəyi güman edilir.

"Fukusima"da ciddilik risk səviyyəsini aşaraq ən yüksək səviyyəyə- 7 bala çatdı. Qəzadan sonra havaya buraxılan radioaktiv tullantıların həcmi Çernobıl AES-də baş vermiş analoji qəzadan 20 dəfə çox idi.

...Bəlkə digər ölkələri anlamaq olardı, amma 1945-ci ildə ABŞ-ın atdığı 2 atom bombasından sonra nüvə radiasiyanın dəhşətli nəticələrini görmüş, güclü şüalanmadan yüz minlərlə qurban vermiş yaponlar üçün AES tikməyi bağışlanmaz səhv saymaq olar...

Tarix göstərdi ki, ən yüksək texnoloji imkanlara və ən güclü alimlərə malik olan ölkələr belə AES qəzasının öhdəsindən gələ bilmədi. Çernobıl qəzasını "unudan" bəzi alimlər AES-lərin vacibliyini cidd-cəhdlə müdafiə edirdilər. Yaponiyadakı qəza AES tərəfdarları üçün növbəti "soyuq duş" oldu.

Bəzi ölkələr AES-ləri bağladı, bəziləri yenilərini tikməyi dayandırdı. Lakin enerjiyə tələbatın fasiləsiz artması və iqtisadi gəlir dövlətləri "yoldan çıxarır". Görünən odur ki, bu proses "3-cü Çernobıl" faciəsinədək davam edəcək.

Qeyd edək ki, kiçik qəzaları nəzərə almasaq, indiyədək dünyada 3 böyük atom qəzası qəza baş verib - biri ABŞ-da, biri SSRİ-də, biri də Yaponiyada. Bir neçə dəfə isə "Tanrı insanların üzünə gülüb" - qəzanın qarşısı son anda alınıb.

### Sağlam həyat və iqtisadi gəlirlər arasında seçim

AES-lərin əsas yanacaq xammalı urandır. Bu elementin dünyada mövcud ehtiyatı tam hesablanmasa da, quruda və suda olan uranın 500 ilə kifayət edəcəyi ehtimal olunur.

Neft-qaz ehtiyatının isə cəmi 70 ilə kifayət edəcəyi proqnoz edilir. Enerji təhlükəsizliyi və iqtisadi gəlirlər əksər dövlətlər üçün ölüm-qalın məsələsinə dönüb.

1978-ci ildə dünyada 200-dən artıq AES var idi. Hazırda bu rəqəm 440-a çatıb. Onlardan 300-ün istismar vaxtı keçib. ABŞ-da 104, Fransada 59, Yaponiyada 54, Rusiyada 31, Cənubi Koreyada 16, Kanadada 14, Ukraynada 13, İsveçdə 11 Çində 5 AES var, daha 5-i də inşa edilir. Almaniyada 19 AES var idi, hamısını bağladılar.

Fransa AES-lər vasitəsilə enerjiyə olan tələbatının 80, Litva 74, Ukrayna 47, Yaponiya 34, Ermənistan 33, İngiltərə 23, Almaniya 22, ABŞ 20, Rusiya 15 faizini təmin edir.

2030-cu ilədək isə, AES-lərin sayının azı 2 dəfə artacağı gözlənilir. Artıq 70-dən artıq ölkə atom elektrik stansiyası tikəcəyi haqda MAQATE-ni xəbərdar edib və bu siyahı genişlənməkdədir.

Bununla yanaşı, qabaqlar AES-lərə malik olan, lakin sonradan öz əhalisinin sağlamlığını və təhlükəsizliyini daha üstün tutaraq onlardan imtina edən ölkələr də var- Almaniya, Avstriya, Danimarka, Filippin, İtaliya, Qazaxıstan.

### Azərbaycana atom stansiyası lazımdırmı?

Azərbaycanda AES tikilməsi barədə 80-ci illərdə layihə də hazırlanmışdı. Nəvai qəsəbəsi yaxınlığında yer də müəyyənləşdirilmişdi və işə başlanılmışdı. Çernobıl qəzası bu istiqamətdə aparılan işlərin dayandırılmasına səbəb oldu. Lakin mütamadi olaraq bu məsələ bəziləri tərəfindən aktuallaşdırılır.

Onlar hesab edir ki, ölkəmizin enerji sistemi bütünlüklə AES-ə keçsə, bunun üçün ildə 50-60 ton uran lazım gələcək. Vurğulayırlar ki, atom stansiyasında alınan enerjinin qiyməti adi yolla alınandan təqribən 2 dəfə ucuz- hər kilovat saatı cəmi 2-3 qəpiyə başa gəlir.

Lakin, atom stansiyaları yaratmaq böyük vəsait tələb edir. Məsələn, 1000 meqavat gücündə olan AES təxminən 5 milyard dollara başa gəlirsə, istilik stansiyası bundan 2 dəfə ucuzdur. Su elektrik stansiyaları isə daha ucuz başa gəlir, xeyli enerji verir, üstəlik təhlükəsiz və daimidir.

Qəza və fəlakət riski ilə yanaşı, AES-lərin radiaktiv tullantılarının konvervasiyası da ayrı bir probemdir. Bu çox ağır və bahalı bir prosesdir. Məhz bu səbəbdən Qərb dövlətləri geridə qalmış ölkələrə pul ödəyərək bu tullantılar onların ərazisində konvervasiya edirlər. Son vaxtlar isə, Ukraynada, Çernobıl AES ətrafındakı qadağan zonada Qərb dövlətlərinə məxsus böyük həcmdə radiaktiv tullantılar basdırılır. Ekspertlər işlənmiş nüvə yanacağı doldurulmuş və yerin dərinliyinə basdırılmış bu çənlərin 25-30 il ərzində çürüyəcəyini və həmin maddələrin qrunt sularına qarışaraq çox böyük ərazilərə yayılacağını deyir və həyəcan təbili çalırlar.

Enerji qıtlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, böyük neft və qaz ehtiyatları olan Azərbaycanda atom enerjisindən istifadə məsələsindən danışmağa belə ehtiyac yoxdur.

Hesablamalara görə, Azərbaycanın neft və qaz ehtiyatları ən pis halda əsrin sonunadək kifayət edəcək. Ölkə prezidenti də bunu dəfələrlə bəyan edib. Üstəlik, bizim çox böyük həcmdə bərpaolunan alternativ enerji imkanlarımız var.

Biz atomsuz da keçinərik. "5-10 manat" qazanc naminə təhlükəli riskə getməyə dəyməz.

### Qafqazda "yatmış əjdaha" və ya "3-cü Çernobıl" təhlükəsi

Ümumilikdə, kiçik qəzaları nəzərə almasaq, bəşəriyyət indiyədək nüvə dəhşətləri ilə 4 dəfə əyani surətdə tanış olmuşdur. 1945-də Yaponiyada, 1979-da Amerikada, 1986-da SSRİ-də, 2011-də Yaponiyada. Əgər tədbir görülməsə 5-cisi Ermənistanda baş verəcək.

Bəli, oyanmaqda olan daha bir nüvə əjdahası Ermənistandadır. Azərbaycan beynəlxalq aləmdə həyəcan təbili şalmaqda davam edir ki, "Metsamor" AES bütün bölgəni fəlakətə sürükləyə biləcək böyük təhlükə mənbəyidir. MAQATE və Avropa İttifaqının ekspertləri də bu stansiyanı ən təhlükəli obyekt kimi qiymətləndiriblər.

Bu AES-də ən köhnə texnologiyadan istifadə edilməsi, maliyyə olmadığından modernləşdirilməməsi hər an qəza təhlükəsi gözlənildiyini deməyə əsas verir. 1977-ci ildə tikilən həmin reaktorun fəaliyyət müddəti 25 il idi və 2001-ci ildə bu müddət başa çatıb. Hazırda bu stansiya dünyada ən köhnə texnologiyada olan yeganə AES-dir. Üstəlik, yüksək seysmik zonada yerləşir.

1988-ci ildə Spitakda baş verən zəlzələ nəticəsində "Metsamor" AES də yararsız vəziyyətə düşdü. Möcüzə sayəsində Qafqazda növbəti atom faciəsi baş vermədi. Bu günə kimi bu stansiyada 100-dən artıq kiçik qəza baş verib.

Qeyd edək ki, 2001-ci ildə Ermənistan Avropa Şurasına üzv qəbul edilərkən "Metsamor" AES-in fəaliyyətini dayandıracağına dair öhdəlik götürüb. Amma bu öhdəlik hələ də yerinə yetirilməyib. Beləcə, Qafqazın ortasında bir kabus dolaşmaqdadır- "3-cü Çernobıl kabusu"

*Elçin Bayramlı*

# Makronun uğursuz və gülünc "səfir əməliyyatı"...

Deyirlər ki, Fransa hökuməti Azərbaycandakı səfirini hansısa məsələlərlə bağlı məsləhətləşmək üçün geri çağırıb. Kim nə deyirsə desin, səfir iki dövlət arasında söz aparıb-gətirən elçidir. Əgər dövlətin başçısı siyasətdə dördüncü-beşinci ranqlı məmurdan məsləhət istəyirsə, bu, deməkdir ki, o ölkə rəhbərinin siyasi və əqli çatışmazlığı var. Bəyəm özünü hamıdan ağıllı hesab edən eqoist müsyö Makron lap bu qədər dayaz siyasətçidir ki, səfirin məsləhətlərinə möhtac qalıb? Bəlkə süni xof yaradaraq rəsmi Bakıya guya bu üsulla təsir göstərə biləcəyini düşünür? Əgər belə düşünürsə, yaxşı olar ki, düşsün o kürsüdən getsin bankirliyini etsin, siyasət onun meydanı deyil. Onsuz da onun dövlət başında durmağa lazımi potensialı çatmır və başdan-ayağa çirkab içindədir. Hələ bir çirkini təmizləsin. Mənsub olduğu partiyanın və ya gücün vasitəsi ilə dövlət başına keçmək hələ o şəxsin mahir siyasətçi, bacarıqlı dövlət məmuru və həyatının nümunəvi, steril olmasından xəbər vermir. Makronun əvvəllər barlarda yüngül əxlaqlı qadınlarla yarıçılpaq vəziyyətdə rəqs etməsi ilə bağlı söz-söhbətlər də gəzir. Hətta onun rəqslərini videolentə çəkib yayanlar da var. Bunlar öz yerində.

**Fransa kimi böyük dövlətin rəhbəri elçi məsləhətinə möhtac qalıbsa, gör nə gündədir?**








Şahidik ki, heç bir səbəb olmadan 2020-ci ilin payızından bəri Fransa Azərbaycana qarşı açıq düşmənçiliyə başlayıb. O vaxtdan elə bir ay olmaz ki, Fransadan ölkəmizə qarşı mənfi xarakterli və ya düşməncəsinə bir hərəkət edilməsin, qərəzli bəyanatlar, hədə ilə dolu açıqlamalar verilməsin, kəskin qətnamələr və ya qərarlar qəbul olunmasın.

İnanmaq belə çətindir ki, Azərbaycana qarşı bu cür açıq düşmənçilik siyasəti yeridən ölkə 2020-ci ilə qədər onun ən böyük probleminin - Qarabağ münaqişəsini həll etməli olan ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olub. Yəni, belə demək caizsə, "quzunu qurda tapşırıblar." Qarabağ münaqişəsinin 30 il boyunca danışıqlar yolu ilə həll olunmamasının səbəbkarlarından biri və bizə daim aqressiv münasibət göstərən Fransa olub. Onun çirkin niyyəti aydın idi- münaqişə Ermənistanın xeyrinə həll olunmalıdır. Nə üçün? Çünki ortada xristian təəssübkeşliyi var, haylar Fransada at oynadırlar, erməni diasporu Fransa hökumətini barmağının ucunda oynadır. Buna görə də dünya dövlətlərin birliyi olan BMT-nin qəbul etdiyi qərar və qətnamələr Fransa və Ermənistan tərəfindən saya alınmır və bir kənara atılır.






Bu uzun illər hamıya elə gəlirdi ki, danışıqların dalana dirənməsi rusiyalı həmsədrlərin daha çox pozuculuğu üzündəndir. Çünki fransalı həmsədrlər özlərinin yaramaz sifətlərini gizlətməyi ustalıqla bacarırdılar, onlar hamıdan artıq ermənipərəstdirlər və bütün fitnə-fəsadların müəllifi onlardır. Məhz bu maska altında düz 26 il müddətində Azərbaycan əleyhinə gizli düşmən planları yeritdilər. Bu işlərin içində olan bəzi rəsmi şəxslər məlumat sızdırırlar ki, həmsədrlər arasında ən təfriqəçi tərəf məhz fransalı həmsədrlər idilər. Onların iyrənc oyunlarına baxmayaraq nəhayət, haqq nazilsə də, üzülmədi.

Fransalı siyasətçilərin maskası məhz 2020-ci ilin payızında cırıldı. Bütün planlarının boşa çıxdığını görən prezident Makron bu dəfə həmin maskanı Fransanın üzündən hikkə ilə çıxarıb atdı, açıq mətnlə ölkəsini dünya ermənilərinin himayədarı elan etdi. O vaxtdan bəridir ki, müsyö Makron da, fransız nazirlər də, senatorlar da həyatlarının qalan hissəsini "ümumermənı işi"nə həsr ediblər.

Bəzən Fransanın özündə ortalıq qarışır, etirazçılarla polis arasında amansız toqquşmalar baş verir, narazılar Fransanın şəhərlərində avtomobillərə od vurur, fermerlər Eyfel qülləsinin ətrafına saman, peyin toplayırlar, ölkəyə dair informasiyalar dünya mediası ilə dolu olur. Əhalinin önünə çıxan Makronun sifətinə şillə çəkirlər, cədd-əqrəbasını söyüb təhqir edirlər, o isə hamısını peysərə verir. Çünki haqlı tələblərin qarşısına arqument qoya bilmir. Çünki o yoxdur. Ancaq Makron və komandası öz ölkəsinin problemləri ilə məşğul olmaq əvəzinə utanmadan Ermənistanın qayğıları ilə yaşayır. Belə çıxır ki, bu kiçik Qafqaz ölkəsi artıq Fransanın soyub-taladığı əyalətlərindən birinə çevrilib.

Budur, özünün ağır vəziyyətində Fransa Azərbaycandakı səfirini məsləhətləşmələr üçün geriyə, Parisə çağırıb. Məqsəd məsələhətləşmək, müzakirə aparmaqdırsa, bundan ötrü səfirin basabasa Parisə getməsinə nə ehtiyac var ki? Səfirlə görüntülü və görüntüsüz şəkildə telefonla da söhbət etmək olar. Ancaq məqsəd bizə hədə-qorxu gəlmək, Azərbaycana qarşı olduğunu həm ölkəmizə, həm Ermənistana, həm də dünyaya göstərməkdir. Başqa sözlə, Fransa Ermənistana görə Azərbaycanla münasibətləri korlamaqdan çəkinmir, ağlına gələn və gəlməyən hər şeyi edir.

Bu günə qədər Azərbaycana qarşı səslənən bəyanatların, qəbul edilən qətnamələrin ardınca indi düşülür ki, Fransanın siyasi avantüristlərdən təşkil olunmuş parlamenti qondarma "artsax"ı "tanıması" məsələsini də gündəmə gətirə bilər. Bunun necə bir avantüra olacağını uzun-uzun izah etməyə heç bir ehtiyac yoxdur. Belə bir avantüra 2023-cü ilin sentyabrına qədər baş versəydi, bu, bəlkə də müəyyən problem yarada bilərdi. Çünki qondarma "artsax" Azərbaycan ərazisində qondarılmış vəziyyətdə qalırdı. İndi həmin qurum, onu formalaşdıran erməni icması ellikcə yığışıb İrəvana gediblər və bildiriblər ki, bundan sonra həmişəlik Ermənistanda və ya Rusiyada yaşamağa qərar veriblər. Yəni, Makron çabalamaları ilə özünü bütün dünyada gülünc vəziyyətə salmaqda davam edir. Yarımçıq siyasətçi olan bu təsadüfi rəhbər əgər öz şəxsiyyətini şərəfsiz, oğru və rəzil adlandırılan hayların ayaqları altına atırsa, bu, adamın şəxsi işidir. Ancaq müsyö Makron yaddan çıxarmamalıdır ki, dünyanın qədim xalqlarından birinin başbilənidir və heç olmasa özünü xalqının adına layiq aparsın...

***Vəli İlyasov***



# Sifarişli və qərəzli hesabat



ABŞ Dövlət Departamenti 2023-cü il üzrə insan haqlarına dair hesabatı açıqlayıb. Əgər hesabatda yazılanların heç olmasa 30 faizi, yəni üçdə biri doğru olsaydı, həqiqətə yaxın olsaydı bunu normal qarşılamaq olardı və quruma "əhsən" deməkdən başqa çarəmiz qalmazdı. Amma nə yazıqlar ki, hesabatı hazırlayanlar nə dövlətin ciddi qurumlarının sənədlərinə, nə cəmiyyətin böyük əksəriyyətini təmsil edən QHT və digər təşkilatların qeydlərini nəzərə almayıblar. Bunun əvəzinə özlərinin maraqlarına xidmət edən QHT və ayrı-ayrı şəxslərin uydurmaları əsasında hazırlanan cızma-qaralara, əsassız iddialara, yalam məlumatlara inanaraq onu çox ciddi sənəd kimi, həm də Amerika Birləşmiş Ştatları dövləti adına yayıblar. Yaxud bir şəxsin törətdiyi cinayətin ağırlığını, cəmiyyət üçün nə qədər təhlükəli olduğunu bir kənara qoyub onun dini mənsubiyyətini, hansı siyasi partiyada təmsil olunduğunu, milli mənsubiyyətni qabardıblar. Bu isə dövlət sviyyəsində qərəz, qarayaxma, iftiradır. Buna başqa ad vermək olmaz.







Əlbəttə bütün bunların nədən qaynaqlandığını artıq hər kəs bilir. Səbəblər müxtəlifdir, hər ölkəyə yanaşma fərqlidir və xüsusən də siyasi məqamlar üstünlük təşkil edir. ABŞ bu cür hesabatları hazırlayarkən reallığı bir kənara qoyaraq bundan ölkələrə təzyiq aləti kimi istifadə edir. Həm də oxşar hadisələrə fərqli standartlar tətbiq etmək bu ölkənin əsas silahıdır. Elə ölkələr var ki, insan haqları bütün mənalarda ayaqlar altındadır, zorakılıq baş alıb gedir, mitinqlərdə ən qəddar üsullardan istifadə olunmaqla etiraz edənlər "zərərsizləşdirilir". Amma Avropa ölkəsi, yaxud xristian, ya da Vaşinqtonun "kiçik bacısı" olduğuna görə hesabatlar hazırlanarkən bütün bunlar unudulur, demokratik ölkə kimi adı başdan yazılır.

2002-ci ilin mart ayında hazırlanan hesabatın Azərbaycana dair hissəsində vurğulanır: "Erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycan torpaqlarının təqribən 20 faizinin işğalı iqtisadiyyatın daha sürətli inkişafına əngəl törədir. Azərbaycan hökuməti işğal olunmuş ərazilərə nəzarət etmir və orada heç bir təsir imkanına malik deyildir. Azərbaycanlı qaçqın və məcburi köçkünlər hələ də çadır düşərgələrində, müvəqqəti sığınacaqlarda ağır vəziyyətdə yaşamağa davam edirlər. Prezident Heydər Əliyev ötən ilin avqustunda Dövlət Neft Fondundan hər ay 906 milyon dollar ayıraraq qaçqınların şəraitinin yaxşılaşmasına sərf etmək haqqında fərman imzalamışdır".

Sanki azərbaycanlılar təbii fəlakət - seldaşqın, yaxud meşə yanğınları nəticəsində evlərini tərk ediblər. Bir milyondan artıq qaçqın və məcburi köçkünün haqqının kim tərəfindən tapdandlığına dair bir kəlmə də yazılmır. Əgər bu qeydlər olsaydı, onda hesabatın Ermənistana aid hissəsində bunlar öz əksini tapar, erməni dövləti azərbaycanlılara qarşı etnik, dimi və milli ayrıseçkilik kimi ağır cinayətlər törədildiyinə beynəlxalq məhkəməyə verilər və cəzalandırılardı. Bunların heç biri baş verməyib, əksinə Ermənistan daim insan haqlarının qorunduğu ölkələr sırasında yer alıb. Bəs, bu, ayrıseçkilik, ikili standart, yalançı hesabat deyilmi? ABŞ-ın hər il dünya ölkələrində "insan haqlarına" dair hesabatını artıq heç kəs ciddi qəbul etmir, çünki onun hazırlanması zamanı 2-ci və 3-cü dərəcəli ABŞ diplomatlarının ölkələrdə sosial mediada yayılan neqativ məlumatları toplayıb dəqiqləşdirmədən, peşəkar təhlil aparılmadan hesabata daxil edilir.

ABŞ-ın dövlət katibi Antoni Blinkenin hesabatla bağlı dedikləri isə "üzürü günahından böyük" yanaşmasıdır. Əvvəla bildirib ki, "Bu hesabatı tərtib edərkən biz müxtəlif mötəbər, fakta əsaslanan mənbələrdən, o cümlədən dövlət qurumlarından, qeyri-hökumət təşkilatlarından və mediadan reportajlar alıdıq". Bunu Blinkenin vicdanına, insafına buraxmaq olardı, amma. Məsələ burasındadır ki, hesabatı hazırlayan qurumlar məqsədli şəkildə, dövlət katibinin də istəklərinə uyğun olaraq heç bir əsası olmayan məlumatları bəzi "qht"lərdən əldə ediblər. O "qht"lər ki, hər kəs onları tanıyır, kimin əlində oyuncaq olduqlarını da bilir, xüsusən də heç bir məsuliyyət daşımadan xarici donorların sifarişi ilə reallığı əks etdirməyən yalan hesabatlar hazırlayıb Dövlət Departamentinə göndərirlər. Blinken məhz həmin yalançı mənbələri nəzərdə tutur.

Hesabatın Azərbaycana aid hissəsində 2023-cü il sentyabrın 19-20-də Qarabağda nəzarəti tam ələ keçirmək üçün antiterror tədbirləri keçirilməsindən bəhs edilir. Bəli, Azərbaycan öz suveren ərazilərində separatçılara, azərbaycanlıları 30 il ərzində terrorla təhdid edən, öz evinə, yurduna getməsinə imkan verməyən, ərazilərimizdə soyqırımı törədən, dini, milli ayrıseçkilik salan terrorçulara qarşı əməliyyat keçirdi. Bundan əvvəl isə dəfələrlə onlara silahı yerə qoymağa çağırsaq da, dünya birliyi tərəfindən tanınan Azərbaycan ərazilərində başqa ölkənin silahlı birləşmələrinin mövcudluğunun qeyriqanuni olduğunu anlatsaq da ermənilər silahlanmağa, yeni istehkamlar qurmağa, Azərbaycan ordusunun qarşı tərəfdə olan mövqelərini atəşə tutmağa başladılar. Terror əməllərini davam etdirən ermənilər işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura köçən mülki vətəndaşlara təhlükələr törətməkdə davam etdilər.

"Sentyabrın 24-dən oktyabrın 1-dək 100 000-dən çox Dağlıq Qarabağ sakini - faktiki olaraq regionun bütün etnik erməniləri Ermənistana qaçıb", kimi təsvir olunan hesabatda ermənilərin hüquqlarından yazılır, bəs azərbaycanlıların? Bəlkə ABŞ Dövlət Departamenti Cənubi Qafqazda "insan" və "insan haqları" deyəndə təkcə erməniləri nəzərdə tutur, bəs qalanları?

Sənədi oxuyarkən bir "yenilik" də gözə dəyir. Sən demə, ABŞ indi də şiələrin hüquqlarını qorumaqla məşğuldur, üstəlik İranla çəkici bir zindana vurur, molla rejiminə himayədarlıq edir. Bildirilir ki, "il ərzində hökumətin qeydə aldığı qurumlardan kənarda ibadət edən çoxlu sayda şiə müsəlmanları İranla əlaqədə olduqları iddiası ilə həbs edilib". Blinkenin rəhbərlik etdiyi ABŞ-ın xarici siyasət idarəsi də bilməmiş deyil ki, Azərbaycanda yaşayan xalqların xeyli hissəsi şiə təriqətinə aiddir və burada ayrıseçkilik, sadəcə mümkün deyil. Həbs olunanlara gəlincə, yəqin ki, istənilən ölkə xəyanəti din üzərindən edənlərə qarşı da eyni münasibəti göstərərdi. O şəxslər şiə olduqları üçün, islama sitayiş etdikləri üçün saxlanılmayıblar, konkret cinayət hadisəsinə görə tutulublar.

Hesabatda əsas niyyətin, məqsədin Azərbaycanı 44 günlük Vətən müharibəsində işğalçı Ermənistanı bu torpaqlardan qovduğuna, burnunu ovduğuna görə cəzalandırmaq olduğu ortadadır. " 2020 və 2022-ci illərdə hərbi əməliyyatlar zamanı Azərbaycan silahlı qüvvələri və ya ayrı-ayrı şəxslər tərəfindən törədilmiş iddia edilən sui-istifadə halları ilə bağlı hökumətin araşdırmaları ilə bağlı heç bir irəliləyiş qeydə alınmayıb", sənəddə qeyd edilir. Bəs ermənilərin törətdiyi və heç bir erməninin cəzalandırılmadığı Xocalı, Malıbəyli, Ağdaban, Başlıbel, Cəmilli, Kosalar, Meşəli, Kərkicahan soyqırımılarını kimin ayağına yazaq? Bəlkə orada vəhşiliklərlə üzləşən, soyqırımına məruz qalan insanlar təbii fəlakətin qurbanı olublar? Suallar çox, buna cavab verəcək kimsə yox.

Əgər ABŞ dünyada insan haqları sahəsinə "nəzarət" rolunu üzərinə götürürsə, əvvəla sosial mediada yayılan, çox vaxt həqiqəti əks etdirməyən və təsdiqlənməyən şayihə və dedi qodular yox, təsdiqlənmiş real məlumatlara əsaslanmalıdır. Ümumilikdə ABŞ özünü bu rolda görürsə, öz ölkəsində insan haqları sahəsində vəziyyətə dair könüllü və açıq şəkildə hesabatla çıxış etsin, ABŞ-da rasizm, islamafobiya, miqrantların hüquqlarının pozulması həbsxanalarda dözülməz şərait və digər məsələləri də hesabata daxil etsin. Amma bunu etmir, niyə? Çünki, özünü ifşa edə bilər. ABŞ-da keçirilən etiraz aksiyalarının qarşısını almaq üçün polisin törətdiyi vəhşiliklər barədə çoxsaylı sübut olunmuş faktlar var. Heç bir təhlükə törətməyən qaradərilinin silahla öldürülməsindən sonra ona atəş açan polisin məsuliyyətdən yayıma hallarına da ABŞ-da rast gəlinir.

Bəs başqa ölkələr barədə yalan hesabatlar hazırlayan ABŞ-a qarşı hansı qarşılığı vermək olar? Əlbəttə, bunun yolları var və əgər BMT və dünya dövlətləri də bir araya gəlib ABŞ-da insan haqları barədə hesabat hazirlasalar Ştatlar bütün dünyada biabır olar. ABŞ-ın İraqda, Əfqanıstanda törətdiyi vəhşiliklər ölçüyəgəlməzdir, onu "insan haqlarının pozulması" kimi yumşaq ifadə ilə bir sıraya qoymaq sadəcə, mümkün deyil.

Təəssüflə qeyd etmək lazımdır ki, Amerika kimi nüfuzlu bir ölkənin Dövlət Departamenti Azərbaycana qarşı hesabatlarında həqiqəti əks etdirməyən qərəzli münasibətini davam etdirir. Bu hesabat ölkəmizdəki reallığı əks etdirmir, əksinə çox ciddi qərəz var. Azərbaycanın demokratik inkişaf yoluna atılan böhtan var. Həmişə olduğu kimi, bu hesabatda da "erməni barmağı" var. Erməni diasporasının maliyyəsi əsasında bir çox ölkələrdə, o cümlədən Amerikada, onun dövlət strukturlarında erməni lobbisi fəaliyyət göstərir, onların təsiri altında bu cür hesabatlar yazılır, dövriyyəyə buraxılır. Azərbaycan demokratik inkişaf yoluna sədaqətini nümayiş etdirməkdədir. Azərbaycan azad ölkələrdəndir, söz və mətbuat azadlığı, sərbəst toplaşmaq hüququ tam olaraq qorunur.

**V.VƏLİYEV**

# “Rusiya sülhməramlılarının ərazimizi tərk etməsi...”

”Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə cari ilin 22 aprel tarixində Moskvaya işgüzar səfəri ölkələrimiz arasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Rusiya arasında münasibətlər müsbət dinamika üzrə inkişaf etməkdədir. Tarixi köklərə, qonşuluq münasibətlərinə əsaslanan bu əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu söyləməyə əsas verir. Azərbaycanın Vətən müharibəsindəki tarixi zəfərindən, antiterror tədbirlərindən sonra regionda yaratdığı yeni reallıqlar, Rusiya sülhməramlılarının ərazimizi tərk etməsi və Moskva ilə də münasibətlərdə yeni səhifə açır. Cənab İlham Əliyevin Baykal-Amur Magistralının (BAM) inşasına başlanmasının 50 illiyi münasibətilə rusiyalı həmkarı Vladimir Putin tərəfindən bu ölkəyə dəvət edilməsi ölkələrimiz arasında olan sıx əlaqələrin göstəricisidir. Ölkə başçılarının təkbətək görüşü zamanı bir sıra vacib məsələlər, o cümlədən, logistika, təhlükəsizlik mövzusunda danışıqlar aparılıb.” Bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev bildirib. Deputat yazır: ”Görüş zamanı cənab İlham Əliyev çıxış edərək bildirmişdir ki, ”BAM-ın tikintisinin başlanmasının 50 illiyinə həsr olunmuş bugünkü tədbirdə iştirakla bağlı dəvətinizə görə ayrıca təşəkkürümü bildirirəm. Rusiya rəhbərliyinin, həmçinin ictimaiyyətinin Heydər Əliyevin xatirəsinə göstərdikləri ehtiramı Azərbaycanda yüksək qiymətləndiririk. Qeyd etdiyiniz kimi Heydər Əlirza oğlu Əliyev vaxtilə Ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində fəal iştirak edib və onun reallaşdırılmasına öz töhfəsini verib. Ona görə bizim üçün əlbəttə ki, bu tədbirdə iştirak etmək çox xoşdur və böyük şərəfdir. Bu gün bu qlobal layihənin həyata keçirilməsinə öz töhfəsini verən insanlarla da görüşəcəyik". Qeyd etmək lazımdır ki, dövrünün ən böyük infrastruktur layihələrindən olan Baykal-Amur Magistralı dünyanın ən uzun dəmir yolu xətlərindən biri olub və bu baxımdan BAM xəttini ”Əsrin layihəsi” adlandırırdılar. BAM eyni zamanda SSRİ-nin irimiqyaslı iqtisadi layihəsi idi. BAM ölkənin şərq bölgələrini effektiv inkişaf etdirmək, yeni sənaye zonaları yaratmaq, xarici texnologiyalara sahib olmaq müasirləşmək, qarşılığında isə inkişaf etmiş kapitalist ölkələrin təbii sərvətlər təchizatçısı kimi SSR-nin rolunun gücləndirilməsi kontekstində hazırlanmışdı.





Ölkə başçısı cənab İlham Əliyev çıxışı zamanı bildirmişdir ki, ”Regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir. Biz, həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq”. Azərbaycan və Rusiyanın vahid ittifaqda yer alması ölkələrimiz arasında münasibətlərin özünəməxsus xarakterini formalaşdırır və regionda sülhün olmasına xidmət edir. Ölkə başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər ölkələrimiz arasında münasibətləri daha da yaxşılaşdırıb. Azərbaycan-Rusiya ölkə başçılarının siyasi iradəsinə uyğun olaraq, hazırda iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişafdadır etməkdədir. Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüş zamanı Ulu Öndər Heydər Əliyev keçmiş SSRİ-nin Baş nazirinin birinci müavini vəzifəsində çalışdığı dönəmdə BAM-ın inşasına şəxsən nəzarət etməsi sayəsində nəhəng layihənin ərsəyə gəlməsində mühüm xidmətlərinin olmasından danışılması hər bir azərbaycanlı üçün fəxarətdir. Ölkə başçısı cənab İlham Əliyevin 22 aprel tarixində Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək eyni zamanda Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşü iki dövlət arasında qədim qonşuluq və dostluq münasibətlərinin sağlam və səmimi olmasının bariz nümunəsidir. Dövrün ən böyük infrastruktur layihələrindən olan Baykal-Amur Magistralı tikintisinin sürətləndirilməsində yeni ideyaları ilə ölkəmiz adını Rusiya dostluq tarixinə qızıl hərflərlə yazdırıb və bu gündə Ulu Öndər Heydər Əliyevin ideyalarını uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edir, regionda sülhün, sabitliyin, əməkdaşlığın və davamlı inkişafın təmin olunması üçün ardıcıl səyləri uğurla həyata keçirir.”

# “Azərbaycanda insan hüquq və azadlıqları ən yüksək səviyyədə qorunur”



**“ABŞ Dövlət Departamentinin insan haqlarının vəziyyətinə dair illik hesabatında Azərbaycanla bağlı fikirlər ikili standartların mövcud olduğunu, müxtəlif subyektiv fikirlərin daha çox üstünlük təşkil etdiyini göstərir və qərəzli xarakter daşıyır. Hesabatda ölkəmizdəki insan haqları ilə bağlı vəziyyət subyektiv mülahizələrə, ermənipərəst mövqelərə əsaslandığından buradakı iddiaları qərəzsiz hesab etmək olar”. Bu barədə SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov Dövlət Departamentinin hesabatını şərh edərkən bildirib.**

A.Hüseynov qeyd edib ki, hesabatda ölkəmizlə bağlı məlumatlar təhrif edilib, müxtəlif antimilli qüvvələrin rəy və fikirlərinə istinad olunub, Azərbaycan dövlətinin rəsmi strukturlarının məlumatlarından istifadə edilməyib: ”Bu isə hesabatda müxtəlif QHT-lərin böhtan xarakterli informasiyalarına geniş istinad edildiyinə dəlalət edir və sənədin obyektivliyini şübhə altına alır. Hesabatın Azərbaycana aid hissəsində 2023-cü il sentyabrın 19-20-də Qarabağda nəzarəti tam elə keçirmək üçün antiterror tədbirləri keçirilməsindən bəhs edilir. Bəli, Azərbaycan öz suveren ərazilərində separatçılara, ərazilərimizdə soyqırımı törədən, dini, milli ayrıseçkilik salan terrorçulara qarşı əməliyyat keçirdi. Bundan əvvəl isə dəfələrlə onlara silahı yerə qoymaq təklif olundu, dünya birliyi tərəfindən tanınan Azərbaycan ərazilərində başqa ölkənin silahlı birləşmələrinin mövcudluğunun qeyri-qanuni olduğu xatırladıldı, amma ermənilər silahlanmağa, yeni istehkamlar qurmağa, Azərbaycan ordusunun qarşı tərəfdə olan mövqelərini atəşə tutmağa başladılar. Terror əməllərini davam etdirən ermənilər işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura köçən mülki vətəndaşlara təhlükələr törətməkdə davam etdilər. Müxtəlif vaxtlarda müxtəlif təxribatçı qrupların Azərbaycandakı siyasi, iqtisadi, sosial, hüquqi islahatlarını kölgə altına salmağa çalışan qərəzli hesabatları olub. İstər ABŞ Dövlət Departamenti, istərsə də digər təşkilatlar olsun, onlar belə qərəzli hesabatlar hazırlamaqla özlərini nüfuzdan salırlar. Onlara olan inam kəskin surətdə azalır. Çünki ədalət prinsipinin pozulduğu yerdə səmimiyyətdən, obyektivlikdən və hörmətdən danışmaq imkansızdır. Amma bütün bunların ölkəmizdə həyata keçirilən sistemli, davamlı islahatlar nəticəsində əldə olunmuş mühüm uğurlara təsir edə bilməz. Azərbaycanda insan hüquq və azadlıqları ən yüksək səviyyədə təmin olunub və etibarlı şəkildə qorunur”.

*Səbinə Hüseynli*



Mətanət MƏMMƏDOVA

# “Tik Tok”: utanmağın daşını atdığımız yer

**Sosial şəbəkələr həyatımıza daxil oldu-olmadı, onsuz da bizdən çox şeyləri aldı. Dəyişdik, ”müasirləşdik”, ”yeniliklərə” boyun əyməli olduq, keçmişi unutmağa başladıq, hətta bəyənmədik, boş vaxtımız qəhət oldu, çünki kompüterlərin qabağından ta durmadıq, telefonları əlimizdən yerə qoymadıq. Kitab oxumaq unuduldu, yerini sosial şəbəkələrdə lazımlı-lazımsız əyləncələr aldı. Qohum-qardaşa qonaq getmək unuduldu, çünki sosial şəbəkələr bizi özünə elə bağladı ki, bütün bunları həyatımızın ikinci planına çevirdik. Xəstələrimizi telefonda soruşduq, yaşlılarımızdan telefonda xəbər bildik. Ölənlərimiz üçün telefonda başsağlığı verdik. Bayramlaşmaları telefonla etdik. Sosial şəbəkələr bizi bir-birimizə göstərdi, görüntülü danışdıq. Ta kiminsə evinə getməyə lüzum qalmadı.**

Günlər ömrümüzdən ayları bir-bir qoparıb il edib arxivə verdikcə, sosial şəbəkələr daha da müasirləşdi, yeniləri yarandı və yarandıqca da bizdən əsər-əlamət qalmamağa başladı. Olduq özgəsi. Günlərin bir günü həyatımıza ”Tik Tok” daxil olanda isə bütün sosial şəbəkələr kimi, ona da sevindik. Üstünlüklərini vurğuladıq, həvəsləndirmələrinə boyun əydik, əyləncələrinə aludə olduq. Ümumilikdə isə ”Tik Tok”a vaxtımızı verdik. Bir də baxdıq ki, nə? Biz haradayıq, nə edirik, nələri paylaşırıq, nələri müzakirə edirik?

Baxdıq ki, biz utanmağın daşını çoxdan atmışıq. Burada elə şeylər paylaşırıq ki, İlahi-pərvərdigara, gözlülər olsun, görməsin. Ta bunlar haqqında danışmaq olmaz. Çünki hələ də utanan adamlar mövcuddur. Buna da minlərcə dəfə şükürlər olsun.

Baxdıq ki, cavan-cavan oğlanlar, həm də ki, hündürboylu, yaraşıqlı, burada küçənin, məhəllənin ortasında rəqs edirlər, utanmadan, qısılmadan. Dedik görən bunlar niyə belə edirlər, dedilər ki, məşhur olmaq istəyirlər. Xəyalımızda igidlərimiz, şəhidlərimiz, qazilərimiz canlandı. Düşündük ki, belə oğullarımız da var, belələri də.

Baxdıq ki, nəvə nənəsini söhbətə tutub onun şirin, yeri gələndə zarafatyana söhbətlərini çəkib burada paylaşır, bütün dünya da tamaşa edir. Sanki nəvə nənəsini lağa qoyduğunu bütün dünyaya reklam edir. Ana övladını çəkir, paylaşır, onu söhbətə tutur, uşaq isə yaşına uyğun olmayan tərzdə danışaraq uşaqlığı təhqir edir. Valideyn isə bunu inkişafın, müasirliyin təntənəsi kimi paylaşır...

Baxdıq ki, həyat yoldaşından ayrılan, qayınanası ilə yola getməyən, ailə problemləri ilə qarşılaşan, ərinin qazancına qane olmayan qadınlarımız ”Tik Tok qəhrəmanına” çevrilib. Şəxsi problemlərini, sözünü-sirrini açıb dünyaya bəyan edir. Hər kəs də bir cür münasibətlə onlara rəy yazır. Mini qızışdırır, biri ”ar olsun”,- deyir. Lakin minlər birlərdən çox olduğu üçün adam daha da qızışır, qızışdıqca da həddini aşır. Başlayır çoxseriyalı filmlər kimi növbəti hissələri çəkib, danışıb paylaşmağa.

Bu ”Tik Tok” yarandı-yaranmadı, bizdən çox şeylər aldı. Fərqində olanlar yəqin ki var. Bir də ki, ”Tik Tok, Tik Tok” deyirik. ”Tik Tok” nə etsin axı? O, bir sosial şəbəkədir. Dayanıb yerində. Dil açıb danışmır, camaata ”gəl, burada özünü biabır et” demir, ”söz-söhbətini aç burada danış” demir, ”video paylaşıb özünü biabır et” demir. ”Tik Tok”da çox yaxşı mənada paylaşımlar da var ki, informasiyanı artırır, öyrədir, xəbərdar edir, arxivləşir.

”Tik Tok” dayanıb yerində, nə edir insanlar edir. Ümumilikdə həm yaxşıları, həm yaxşı olmayanları fonunda ”Tik Tok”un bu gün bizdən aldıqları verdiklərindən dəfələrlə çoxdur. Bu gün nə qədər yalan, qeyri-rəsmi xəbərlər varsa, hamısı ”Tik Tok”dan ətrafa yayılır. Nə qədər lazımsız-lüzumsuz söhbətlər, videolar var, hamısı ”Tik Tok”da edilir, göstərilir. Biz nə edirik, hələ üstəlik götürüb həmin yalanları və lüzumsuzları digər sosial şəbəkələrdə də paylaşırıq. İnsanların beynini zəhərləyirik, yetişməkdə olan nəslin tərbiyə istiqamətini dəyişdiririk.

Elə bu səbəbdən də gəlin, barı övladlarımızı ”Tik Tok”dan qoruyaq. Ağlımız nə kəsir, onu etməyək. Bir düşünək ki, bu yalan xəbər, lüzumsuz söhbət, əxlaqa sığmayan videolar bizim hansı dəyərlərimizi əlimizdən alır. Gəlin özümüzə bir az yazığımız gəlsin. Utanmağın daşını atdığımız bu məkanda onun bizdən aldıqlarının yerini verdiklərinin doldura bilməyəcəyini bir an da unutmayaq, gec olsa da. Bəlkə nələri isə qaytara bilərik...

# "Milli Şura" mitinqini "SOROS" Fondu ilə razılaşdırıb



Demoqoloq, ona buna şər atmaq, yersiz və əsasız ittihamlarla çıxış etmək insanlıq aləmində ən pislənilən və qınalınan hallardı. Təəssüf ki, bu kimi hallara qarşı mübarizə və maarifləndirmə işləri aparılsa da hələ ki, müsbət nəticələr əldə etmək mümkün deyil. Yenə də bu kimi xəstəliyə mübtəla olanlar öz əməllərini davam etdirirlər. Hətta həmin xəstələr arasında elələri var ki, siyasət meydanındadılar, partiya sədrləridir və ya siyasi təşkilatların funksionerləridir. Misal olaraq Azərbaycanın dağıdıcı müxalif ünsürlərinin fəaliyyətlərini və ikrah doğuran əməllərini göstərmək olar. Əli Kərimlidən, Cəmil Həsənlidən və onların ətrafındakı trollar bütün varlıqları ilə sözügedən xəstəliyin daşıyıcılarıdır. Bəzən elə hallar olur ki, onlar digər məram və məqsədlərini anlamayan məxluqları da özlərinin mübtəla olduqları xəstəliyə yoluxdururlar. Məhz şər və böhtan xəstəliyinə yoluxan bir ovuc insan Ə.Kərimlinin, C.Həsənlinin, A.Hacılının, İ.Qəmbərin və digərlərin çaldığı hava qol götürüb, oynayır, sosial şəbəkələrə çıxıb ictimai rəyin maraq və mənafeynə ziddi olana açıqlamalar yayırlar, videolar paylaşırlar. Belələrini artıq islah etməkdə çətin görünür.

Çünki məsəl var deyərlər, "atı at yanına bağlasan, vurağan olmasa da, həmxasiyyət olar". Eləcə də, bir zaman Gültəkin Hacıbəyli, Nazim Baydəmirli, Elman Fətəliyev, Sevinc Osmanqızı və digərləri daha çox sağalam və milli maraqlara cavab verə biləcək fəaliyyət yolu tutmuşdular. Ancaq bir-iki məqam da Ə.Kərimli və C.Həsənli ilə təmasları olduğundan onların mübtəla olduqları xəstəliyə yoluxdular. İndi də sağalmaq gücünə və imkanına malik deyillər. Hər gün elə C.Həsənli və Ə.Kərimli kimi şər və böhtanlar səsləndirir, qarayaxma kampaniyası aparırlar.

### Əli Kərimli sifariş yerinə yetirir

Hər məqam da Ə.Kərimli dövlətçilik maraqlarına zərə vurmağa çalışır. Onun zərurət olmadığı halda hazır ki məqam da mitinq şousuna hazırlaşması da ictimai rəyin mənafeyinə ziyan vurmağa hesablanıb. Çünki bu gün Azərbaycanın bütün ictimai fəalları, vətənpərvər insanları, siyasi partiyaları, dövlət sruktурlarının nümayəndələri noyabrda Bakı şəhərində keçirilməsi planlaşdırılan COP29 İqlim Dəyişmələri Konfransına səfərbər olunub. Hər bir kəs tədbirin gülü və qüdrətli Azərbaycanın adına və nüfuzuna uyğun keçirilməsinə töhvə verməyə çalışır. Bütövlük də döstunda, düşmənində diqqəti Azərbaycana yönəlib. İndi aydın olacaq kim dostun, kim düşmənin yanındadır. Mübaliğəsiz demək olar ki, dağıdıcı müxalifət yenə də düşmənin yanında qərara tutacaq. Daha doğrusu artıq mövqelərini ortaya qoyublar. Əli Kərimli sosial şəbəkə hesabında açıq şəkil də bəyan edib ki, onlar COP29 Konfransının keçirildiyi günlər də kütləvi etiraz aksiyaları keçirəcəklər: "Biz artıq mitinqlərə start vermişik. Çalışacağıq qarşımızda dayanan məqsəd və vəzifələri icra edək".

### Əli Kərimli Frank Şvaberə yenə təşəkkür etdi

Ə.Kərimli Bakının mərkəzində planlaşdırdıqları aksiyanın xarici tərəfdaşlar tərəfindən dəstəklənməsi üçün müvafiq işlər aparıldığını da gizlətməyib. Onun C.Sorosun dünya da insan hüquq və azadlıqlarına dair sayıqlamasını özünəməxsus şəkil də şərh etməsi AXCP ilə "SOROS" Fondu arasında gizli əməkdaşlıq əlaqələrinin COP29 ərəfəsi açıq müstəvi də həyata keçiriləcəyindən xəbər verir. Həm də o ehtimalları yaradır ki, AXCP və Milli Şura mayın 5-ə planlaşdırdığı icazəsiz aksiyanı "SOROS" Fondu ilə razılaşdırıb. Bu baxımdan demək olar ki, "Milli Şura"nın mitinqi çox böyük təxribatlarla təşkil oluna bilər. Yəni polislə qarşıdurmalara yaranar, şəhər sakinlərinin şəxsi əmlaklarına ziyan yetirilə bilər. Bu arada Ə.Kərimlinin Almaniya nasistlərinin fəallarından olan Bundenstaqının AŞPA-dakı təmsilçisi Frank Şveber haqqında xoş sözlər, tərifli ifadələr səsləndirməsi bu məxluqun mitinq şousuna nasistində dəstəyini istənildiyini göstərir.

Frank Şveber o məxluqdur ki, Azərbaycanın AŞP-da səsvermə hüququnun məhdudlaşdırılması layihəsini irəli sürmüş və özü təfəkkür də və düşncə də olan "xaç" lıların dəstəyi ilə istəyini reallaşdırmışdır. İndi də öz çirkin əməllərini davam etdirməkdədir. Bu məxluq gah deyir ki, guya Azərbaycanda siyasi məhbuslar var, gah da deyir ki, Qubad İbadoğlunun azad edilməsi müsbətə doğru atılan addımdır. Lakin F.Şveber Azərbaycana qarşı haqsız davranışına görə ölkəmizin vətəndaşlarından üzr istəmir. Çünki o siyasi mədəniyyətə malik deyil. Həm də faşistlər də insanlıq, humanizm, xeyirxahlıq olmur. Tarix bunu dəfələrlə sübut edib. F.Şveberin lideri A.Hitlerin dünya xalqlarına yaşatdığı faciələri heç bir xalq unutmayır və bəşəriyyət durduqca unudulmayacaq. Belə bir nasistlə Ə.Kərimlinin əməkdaşlıq etməsi, onun Azərbaycanla bağlı şər və böhtanlarına haq qazandırması yalnız və yalnız ittihama və tənəyə layiqdir.

***İLHAM ƏLİYEV***

# "Bizim yeganə problemimiz hal-hazırda mina problemidir"

**""Böyük Qayıdış"la bağlı dövlət proqramının həyata keçirilməsi intensiv şəkildə davam edir". Bu sözləri SİA-ya açıqlamasında deputat Tural Gəncəliyev deyib. O bildirib ki, artıq yay ayları ərzində intensiv köç prosesi sürətlənəcək: "Artıq Şuşaya ilk dəfə olaraq "Böyük Qayıdış" başlayır. Biz bu yay ərzində və ilin sonuna kimi Şuşaya şəhər sakinlərinin işğaldan sonra ilk dəfə daimi yaşayış üçün qayıtmasının şahidi olacağıq. Bildiyiniz kimi Laçın şəhərində artıq əsas məskunlaşma başa çatmışdır. İndi bu prosesin davamı gedir. Laçın gündəngünə gözəlləşir, inkişaf edir. Oturuşmuş "Böyük Qayıdış" və köç prosesi sürətlə davam edir. Eyni zamanda Füzuli şəhəri də bu proqram çərçivəsində müvəffəqiyyətlə sakinlərini qarşılayır. Dövlət proqramı bu istiqamətdə də həyata keçirilir.**





Bunlar hamısı davam edən, geniş vüsət almış quruculuq, bərpa işləri ilə birlikdə gedir. İnfrastruktur sistemi, yollar, körpülər, tunellər, hava limanları çox sürətlə tikilməkdədir. Bunu biz hər dəfə Qarabağ iqtisadi zonasına, Şərqi Zəngəzur iqtisadi zonasına səfər edəndə görə bilirik. Dövlətimiz böyük büdcə vəsaitlərini məhz Qarabağ iqtisadiyyatının inkişafı üçün ayırır, insanların geri qayıtması üçün zəmin hazırlayır. Eyni zamanda Qarabağın və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rifah halını yüksəltməsi bu prosesin ətrafında gedən siyasi proseslərlə də məntiqi sonluğunu tapacaq. Çünki Ermənistanla bütün problematik məsələləri həll etdikdən, Azərbaycanın suverenliyi bərpa edildikdən, Qazaxın 4 kəndi qaytarıldıqdan sonra Ermənistanla Azərbaycan arasında sərhəd delimitasiya və demarkasiya prosesi çərçivəsində ilk sərhəd nişanının torpağa basdırıldığı kontekstdə bu məsələyə baxsaq, "Böyük Qayıdış"ın daha təhlükəsiz, daha müvəffəqiyyətlə olacağı göz qabağındadır. Çünki Qarabağ bölgəsi üçün heç bir təhlükə qalmır, beləliklə də, bu prosesi yekunlaşdırmaq daha müvəffəqiyyətli olacaq".








"Bizim yeganə problemimiz hal-hazırda mina problemidir. Bu problem də obyektiv xarakter daşıyır. Minanın sayının çox olması bizdən asılı deyil. Dövlətin əlindən gələni etməsi bu prosesi yekunlaşdıracaq. Ancaq mina problemi dünyanın üzləşdiyi problemdir ki, burada sürət amilinə yox, daha çox minanın təhlükəsiz şəraitdə təmizlənməsi amilinə önəm verilir. Ona görə də biz məsələni də nəzərə almalıyıq. Beləliklə, "Böyük Qayıdış" proqramının əsas hissəsi 2025-2026-cı illərdə başa çatacaq. Azərbaycanın Qarabağ iqtisadi zonası, Şərqi Zəngəzur Azərbaycanın digər bölgələrindən biri kimi inkişaf etmiş yer olacaq" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Buzlaqlar əriyir, təhlükə böyüyür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb*



***Dünyada böyük xaosa səbəb olacaq fəlakətlərdən biri də qütblərdə və yüksək dağlarda buzlaqların sürətlə əriməsidir. Buzlaqlar üzərində aparılan bir çox tədqiqatlar onların olduqca böyük sürətlə əridiyini sübut edir. Qlobal istiləşmə ilə əlaqədar olaraq buzlaqlarda ərimənin miqdarı dəyişir. Planetimiz bu sürətlə istiləşməyə davam edərsə, 2100-cü ilə qədər Himalay buzlaqlarının 68 faizini itirəcək.***



Əsrimizin sonunda insanların təbiətə verdiyi zərər dünyanın 2,7 dərəcə istiləşməsinə səbəb olacaq. Bu, təxminən 2 milyard insanın həyati əhəmiyyət daşıyan su ehtiyatlarının itirilməsi deməkdir. Science jurnalında dərc olunan araşdırmada 200 min fərqli buzlağın iqlimdən necə zərər gördüyü detallı formada izah edildikdən sonra istiləşməni 1,5 dərəcəyədək endirməyi hədəfləyən Paris razılaşmasına əməl edilsə belə, mövcud buzlaqların yarısı itiriləcək.

Dünyadakı suyun 97%-i dənizlərdə və okeanlarda duzlu su olaraq mövcuddur. Qalan 3% şirin sudur. Dünyadakı şirin suyun 69%-i buz və qar formasındadır. Buz və qar şəklində olan bütün bu donmuş kütlələr buz sferasını əmələ gətirir. Buz və qarın böyük hissəsi Arktika və Antarktika buzlaqlarında, qalan hissəsi isə Himalay, Alp, And və Qayalı dağları kimi yüksək yerlərdədir. Dəniz buzlaqları istisna olmaqla, quru buzlaqları qitələrin 10%-ni əhatə edir. Bu yerlərdə orta temperatur heç vaxt 0 °C-dən çox deyil.

Dağ buzlaqlarının əriməsinin dəniz səviyyəsinin yüksəlməsində 3\1 paya səbəb olacağı təxmin edilir. Tədqiqatçılar bildirirlər ki, xüsusilə 1 kvadrat kilometrdən kiçik buzlaqlar istiləşməyə dözməyəcək.

Ekspertlərin hesablamalarına görə, Yaxın Şərq, Qafqaz, ABŞ və Yeni Zelandiya kimi bəzi regionlarda buzlaqların kütləsi ən yaxşı halda 60 faiz təşkil edir. Əgər istiləşmə gözlənildiyi yüksək faizədək qalxsa buzlaqlar 100 faiz itiriləcək. Bəs planetimizdəki bütün buzlaqlar ərisə, nəticə necə olacaq?



Qütb buzlaqları "dünyanın kondisionerləri" adlandırılır və planetimizin iqlim sisteminin tənzimlənməsində çox mühüm funksiyaya malikdir. Dünyanın cənubundan fərqli olaraq, şimal qütbündə buzlu qitə yoxdur. Şimal Buzlu okeanındakı buzların bir hissəsi hər yay əriyib suya çevrilir, hər qış yenidən donur. Bununla belə, iqlim böhranının yaratdığı təsir ilə donmuş Arktika dənizinin buz kütləsi gündən-günə kiçilir, eyni zamanda qatı nazikləşir. Araşdırmalara görə ərimə ən çox sentyabr ayında başlayır, hər 10 ildən bir 13 faiz azalma qeydə alınır. Alimlər bildirir ki, bu rəqəm min ildir ki qeydə alınmayıb.

Dəniz buzlarının əriməsinə səbəb dünyanın getdikcə isinməsi, istixana qazları emissiyasının artması, ekoloji tarazlığın pozulmasıdır. Buzlaqlar əridikcə dünya daha da isinir. Hesablamalara görə Arktika səthinin temperaturu son 20 ildə iki dəfə artıb. Qrenlandiyanın buz təbəqəsinin əriməsi isə 2006-2018-ci illər arasında dəniz səviyyəsindəki artımın 17,3 faizini təşkil edib. Alimlər qlobal istiləşmənin son 20 ildə Qrenlandiyanın buzlaqlarının ərimə sürətini 5 dəfə artırdığını açıqlayıblar. Qrenlandiyada bütün buzların əriməsi dəniz səviyyəsinin ən azı 6 metr yüksəlməsinə səbəb ola bilər.

Geophysical Research Letters jurnalında dərc edilən araşdırmada 6 qitədən 99 sahilyanı şəhər barədə yazılmışdı. Sahilyanı şəhərlərin hər il bir neçə santimetr su altında qaldığını müşahidə edilir. Buna görə Çinin Tianjin şəhəri hər il ən çox 5 santimetr itkiyə məruz qalan şəhərdir. Tyanjindən sonra Pakistanın Karaçi və Filippinin Manila şəhərləri təhlükədədir.

Bu, təkcə qlobal istiləşmə ilə bağlı problem deyil, həmçinin böyük şəhərlərdə qeyri-mütəşəkkil tikinti üsulları, infrastrukturun olmaması da sel və daşqınlar nəticəsində itkilərə səbəb olur. İş o yerə çatıb ki, İndoneziya paytaxt Cakartanı köçürməyə hazırlaşır. Paytaxtın köçürülməsi qərarı siyasi və ya hərbi səbəblərdən deyil, əhalinin sayının, iqlimin və təbii şəraitin artması ilə bağlı olub. Dünya əhalisinin 44 faizi sahilyanı ərazilərdə yaşayır. Buna görə də bir çox ölkə və şəhərlər su altında qala bilər.

Müxtəlif qazlardan ibarət olan atmosferin strukturunda rast gələnən karbon qazı (CO2), metan (NH4), diazoksid (N2O), ozon (O3) və xloroflorokarbon (CFC) kimi istixana qazları günəşdən yerə gələn şüaların süzərək yer kürəsini müəyyən temperaturda saxlayır. Hazırda əhalinin sürətli artımı, həyat şəraitinin yaxşılaşması məqsədi ilə enerjiyə tələbat sürətlə artır. Artan enerji ehtiyacını ödəmək üçün kömür, neft və təbii qaz kimi qalıq yanacaqlardan istifadə edilir. Bu da atmosferə lazım olduğundan daha çox istixana qazları buraxılması deməkdir.

Atmosferə böyük miqdarda buraxılan istixana qazları atmosferdə həddindən artıq istixana effekti yaradır və qlobal istiləşməyə səbəb olur. Qlobal istiləşmə həddindən artıq quraqlıq, sellər, daşqınlar, torpaq sürüşmələri, meşə yanğınları, insanların və heyvanların həyat şərtlərinin və yerlərinin dəyişməsi, qütb buzlaqlarının əriməsi və dəniz səviyyəsinin qalxması kimi zəncirvari təbii fəlakətlərin baş verməsinə səbəb olur.

Buzlaqlar çox dinamik sistemlərdir. Onları izləyəndə buzlaqların hərəkətini görə bilmirik, lakin peyklər vasitəsilə buzlaqların hərəkətini çox yaxşı müşahidə edə bilərik. Müşahidələr göstərir ki, buzlaqlar ətraf mühitdəki temperatur dəyişikliklərinə düşünüldüyündən də qatqat həssasdır. Qrenlandiyadakı Yakobsen buzlaqının yayda gündə 40 metr irəlilədiyi müəyyən edilib. Bu irəliləyiş on il əvvəllə müqayisədə təxminən iki dəfə çoxdur.

Təxminən 2,5 milyon il əvvəl, yeni insanların Yer üzündə ilk dəfə var olduğu ehtimal edilən vaxtdan bəri, müxtəlif qitələrdə əmələ gələn buzlaqlar və onların əriməsi nəticəsində əmələ gələn su axınları səbəbindən insanlar bəzən yaşadıqları torpaqlardan başqa yerlərə köç etmək məcburiyyətində qalıblar. Yaradılışın qaydalarını pozan, müxtəlif yollarla atmosferə, təbiətə, nizama zərər verən insan növbəti köçə də hazır olmalıdır.

***Lalə Mehralı***



SON SƏHİFƏ
SƏS
26 aprel
2024-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İpoteka krediti ilə bağlı hansı dəyişikliklər var?



*MÜNASİBƏT*

""Konstitusiya Məhkəməsinin Mülki Məcəllənin 269, 317.1, 319.1 və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 34.1-ci maddələrinin şərhi ilə bağlı" Qərarına əsasən, Mülki Məcəlləyə uyğun olaraq, borclunun ölümündən sonra mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib.

O bildirib ki, ölən şəxsin mirasını qəbul edən şəxs vərəsə sayılır: "Qanuna görə də vəfat edən şəxsin vərəsəsi qəbul etdiyi mirasın dəyəri həddində borc öhdəliyini götürməlidir. Mülki Məcəllə və "İpoteka haqqında" qanuna uyğun olaraq, əsas öhdəlik üzrə borclu, o cümlədən əsas borclunun ölümü halında vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə (əsas öhdəlik pozulduqda) kreditor ipoteka predmetinə tutmanın yönəldilməsi barədə iddia qaldıra bilər".

***Söylü Ağazadə***

# XƏBƏRDARLIQ: Mayın 1-dən balıq ovu qadağan edilir

***Balıqların kürütökmə dövrü ilə əlaqədar may ayının 1-dən Azərbaycanda bütün su hövzələrində balıq ovuna moratorium qüvvəyə minir. SİA xəbər verir ki, bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib.***



Onun sözlərinə görə, bu proses sentyabrın 1-dək davam edəcək. Xidmət rəsmisi balıq ovu ilə məşğul olan bütün fiziki və hüquqi şəxsləri qaydalara əməl etməyə, qadağan olunmuş vaxtlarda, qadağan olunmuş alətlərlə balıq ovlamaqdan çəkinməyə çağırıb.



# Zərdabda moped, Salyanda avtomobil yanıb

***Zərdabda moped, Salyanda isə avtomobil yanıb. SİA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbərinə görə, Zərdabda"Orbit" markalı mopedin yanar hissələri yanıb. Ətraf ərazilər yanğından mühafizə olunub.***

Salyan rayonunun Qırx Çıraq qəsəbəsində "Renault" markalı minik avtomobilinin yanar hissələri yanıb. Yaxınlıqdakı avtomobillər yanğından mühafizə olunub. Hər iki yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.

# Bu gün Bakıda 29, rayonlarda 31 dərəcə isti olacaq



**Aprelin 26-da Azərbaycanda müşahidə ediləcək hava proqnozu açıqlanıb. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirlib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 14-17° isti, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 763 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 50-60%, gündüz 40-50% olacaq. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı, zəif duman olacağı ehtimalı var. Şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 26-31° isti, dağlarda gecə 7-12° isti, gündüz 15-20° isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200